# Qışda Azərbaycanda antibiotik böhranı yaşanacaq



**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) dərman təchizatı qrupu yoluxucu xəstəliklərin sayının artması ilə əlaqədar dünyada antibiotik qıtlığının yarandığını bəyan ediblər.**

Araşdırmalara görə 35 ölkənin 80%-də "Penisilin" əsaslı preparatların, ABŞ, Kanada və Avropa İttifaqının 25 ölkəsində isə "Amoksisilin"in qıtlığından şikayətlənirlər. Kiçik ölkələrdə hələlik bununla bağlı vəziyyət stabildir.

(səh.2)



# Parisdə atışma baş verib, ölən və yaralananlar var

**Fransanın paytaxtı Paris şəhərində 60 yaşlı naməlum şəxs şəhərin Engien küçəsində Colt 45 tipli tapançadan atəş açıb, ölən və yaralananlar var.**

APA xəbər verir ki, bu barədə "Agence France-Press" şəhərin polis departamentinə istinadən bildirib.

Ən azı 2 nəfərin öldüyü qeyd olunub və bir neçə nəfər yaralanıb.

Həmçinin əlavə olunub ki, atəş açan şəxs artıq saxlanılıb.


№ 236 (5757), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 24 dekabr 2022-ci il (şənbə)




# Qərargah danışıqları davam edir

Türkiyə nümayəndə heyəti Hərbi Hava Qüvvələrinin hərbi hissələrini ziyarət edib

**Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında 2022-ci il üçün ikitərəfli hərbi əməkdaşlıq proqramına uyğun olaraq hər iki ölkənin Hərbi Hava Qüvvələrinin (HHQ) nümayəndələri arasında keçirilən 13-cü Qərargah danışıqları davam edir.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, plana uyğun olaraq nümayəndə heyəti HHQ-nin hərbi hissələrini ziyarət edib. Qonaqlara hərbi hissələrin yaranma tarixi və fəaliyyəti, birinci Qarabağ və Vətən müharibəsində keçdiyi döyüş yolları barədə ətraflı brifinq təqdim olunub.

Sonra türkiyəli nümayəndə heyətinə hərbi hissələrin silahlanmasında olan döyüş texnikası və aviasiya-uçuş vasitələri haqqında geniş məlumat verilib.

*Sonda qarşılıqlı hədiyyələr təqdim edilib və xatirə şəkli çəkdirilib.*



# İlham Əliyev xarizmatik liderdir

Cümşüd Nuriyev: "Əmin olun, hazırda seçki keçirilsə, İlham Əliyevin səs faizi 95 olacaq"

**24 dekabr Azərbaycan Prezidenti İlham Əliyevin doğum günüdür. Xalqımıza 200 illik böyük bir aradan sonra qalıb xalq sevincini yaşadan böyük sərkərdənin, Ali Baş Komandanın 61 yaşı tamam olur. Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi ilk dövrlərdən bu günə qədər həyata keçirdiyi islahatlar Azərbaycanın dayanaqlı inkişafının səbəbidir.**

İqtisadi böhranlara, beynəlxalq təzyiqlərə və pandemiyanın yaratdığı çətinliklərə rəğmən dövlət başçısının nümayiş etdirdiyi yüksək peşəkarlıq və xalqa arxalanma siyasəti Azərbaycanda yaşanan ümumxalq birliyinin səbəbidir. Sonuncu prezident və parlament seçkilərindən sonra ölkəmizdə başlanan islahatlar yeni mərhələyə qədəm qoydu və bu gün də bu mütərəqqi proses Prezident İlham Əliyevin rəhbərliyi altında əzmlə davam etdirilir. Sürətlə dəyişən reallıq və müəyyən olunan yeni obyektiv amillər islahatların davamlı aparılmasını vacib vəzifə kimi müəyyən edir. Şübhəsizdir ki, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası yaxın gələcəkdə inkişafda olan ölkələr sırasından çıxaraq inkişaf etmiş ölkələr arasına daxil olacaq. Prezident İlham Əliyevin tez-tez dünyanın ən nüfuzlu liderlərindən biri elan olunması onun qlobal fəaliyyətinin məntiqi nəticəsidir.

(səh.2)

# Ermənistan Moskva danışıqlarına gəlmədi

## Lavrov İrəvanın ünvanına tənqidlər səsləndirdi



**Ceyhun Bayramov:** "Qarabağda Vardanyanın əməlləri cinayət xarakterlidir, buna tezliklə son qoyulmalıdır və bu nə qədər tez baş versə, bir o qədər yaxşıdır"

**Sergey Lavrov:** "Azərbaycanın sülh müqaviləsi ilə bağlı təklifləri hüquqi sənəd üçün zəmin yaradacaq"

**Moskvada Rusiya xarici işlər naziri Sergey Lavrov və Azərbaycan XİN rəhbəri Ceyhun Bayramov arasında ikitərəfli görüş keçirilib.**

Görüşün protokol hissəsi mətbuat nümayəndələri üçün açıq olub. Xatırladaq ki, Moskvada Ermənistan xarici işlər naziri Ararat Mirzoyanın iştirakı ilə üçtərəfli görüş nəzərdə tutulub. Lakin Mirzoyan Laçın yolundakı aksiyaları bəhanə edərək üçtərəfli görüşdən və Kremlin təklifindən imtina edib.

(səh.3)

# Vaxtı çatıb

## Azərbaycan bütün ərazilərinə nəzarət etməlidir



**Dünən Milli Məclisin payız sessiyası çərçivəsində növbəti plenar iclası keçirilib.**

İclasın gündəliyinə 39 məsələ daxil edilib. Öncə Milli Məclis doğum günü münasibəti ilə Prezident İlham Əliyevə təbrik məktubu ünvanlayıb. Sədr Sahibə Qafarova təklif edib ki, dövlət başçısı İlham Əliyevə Milli Məclis adından təbrik məktubu göndərilsin.

(səh.4)



# Azərbaycana böyük valyuta qazandıra bilər

Türkiyə ilə ortaq turizm marşrutlarının yaradılması effektiv olacaq

**Azərbaycan-Türkiyə Turizm üzrə Birgə Komissiyasının 2-ci iclasında ikitərəfli turizm əlaqələrinin mövcud vəziyyəti, tanıdılması, tənzimlənməsi, təşviqi, təhsili və təlimi, marketinq, kommunikasiya və turizm məhsulları, növbəti dövr üçün birgə Fəaliyyət Proqramının hazırlanması və digər məsələlər müzakirə olunub.**

Komissiya iclası Dövlət Turizm Agentliyinin sədrinin müavini Azadə Hüseynova və Türkiyə mədəniyyət və turizm nazirinin müavini Nadir Alpaslanın həmsədrliyi ilə keçirilib.

(səh.6)

# Vəfat edən olmayıb

84 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 84 yeni yoluxma faktı qeydə alınıb, 78 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan şəxslərdən vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 825 821 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 815 219 nəfər müalicə olunaraq sağalıb, 10 002 nəfər vəfat edib, aktiv xəstə sayı 600 nəfərdir.

*Ölkədə son sutka ərzində 1 506, hazırkı dövrədək isə 7 416 537 test aparılıb.*

# Bakı-Quba-Rusiya yolunun 64 kilometrlik hissəsi istifadəyə verilib



**Bu gün Bakı-Quba-Rusiya Federasiyası dövlət sərhədi avtomobil yolunun 64 kilometrlik hissəsi istifadəyə verilib.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Anar Nəcəfli APA-ya deyib ki, yol Prezident İlham Əliyevin tapşırığına əsasən, 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ərəfəsində açılıb.

Açılış mərasimində AAYDA-nın İdarə Heyətinin sədri Saleh Məmmədov, Quba və Şabran rayonlarının icra hakimiyyəti başçıları iştirak edib.

Bildirilib ki, Qubadan Bakı istiqamətində yenidən qurulan 67 kilometrlik yolun son 3 kilometrində işlər 2023-cü ilin yanvar ayında tam başa çatdırılacaq.



# "Biz də Xankəndiyə, Xocalıya qayıtmaq istəyirik"

**Ceyran Əzizova: "Sağlıq durumum əlverişsiz olsa da, yenə də mən aksiyaya qoşulmağa hazıram"**

(səh.5)



# "Media mənsubları aksiya yerində işin öhdəsindən gəlir"

**Orxan Amaşov:** "Hazırda bizim jurnalistlər aktivdir, xarici mediaya müsahibələr verir, operativ informasiya ilə təmin edirlər"

(səh.6)



# İlham Əliyev xarizmatik liderdir

## Cümşüd Nuriyev: "Əmin olun, hazırda seçki keçirilsə, İlham Əliyevin səs faizi 95 olacaq"

**24 dekabr Azərbaycan Prezidenti İlham Əliyevin doğum günüdür. Xalqımıza 200 illik böyük bir aradan sonra qalıb xalq sevincini yaşadan böyük sərkərdənin, Ali Baş Komandanın 61 yaşı tamam olur. Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi ilk dövrlərdən bu günə qədər həyata keçirdiyi islahatlar Azərbaycanın dayanaqlı inkişafının səbəbidir.**

İqtisadi böhranlara, beynəlxalq təzyiqlərə və pandemiyanın yaratdığı çətinliklərə rəğmən dövlət başçısının nümayiş etdirdiyi yüksək peşəkarlıq və xalqa arxalanma siyasəti Azərbaycanda yaşanan ümumxalq birliyinin səbəbidir. Sonuncu prezident və parlament seçkilərindən sonra ölkəmizdə başlanan islahatlar yeni mərhələyə qədəm qoydu və bu gün də bu mütərəqqi proses Prezident İlham Əliyevin rəhbərliyi altında əzmlə davam etdirilir. Sürətlə dəyişən reallıq və müəyyən olunan yeni obyektiv amillər islahatların davamlı aparılmasını vacib vəzifə kimi müəyyən edir. Şübhəsizdir ki, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası yaxın gələcəkdə inkişafda olan ölkələr sırasından çıxaraq inkişaf etmiş ölkələr arasına daxil olacaq. Prezident İlham Əliyevin tez-tez dünyanın ən nüfuzlu liderlərindən biri elan olunması onun qlobal fəaliyyətinin məntiqi nəticəsidir. Nüfuzlu beynəlxalq təşkilatların hesabat və sorğularında daim Azərbaycan Prezidenti liderlər sırasına düşür. Dövlət başçısı bir neçə dəfə beynəlxalq təşkilatlar tərəfindən "İlin adamı" elan olunub. Ona müxtəlif ölkələrin ali mükafatları təqdim olunub. Bütün bunlar təbii ki, İlham Əliyevin həm ölkədə həyata keçirdiyi siyasətə, həm də beynəlxalq fəaliyyətinə görə verilib. Son illər Azərbaycanda müşahidə olunan siyasi, iqtisadi və digər proseslər ölkəmizdə bütün sahələr üzrə sürətli inkişafın, milli maraqların, bəşəri ideyaların və demokratik prinsiplərin əksər dövlətlər üçün bir nümunə ola biləcəyini deməyə əsas verir. İqtisadi, siyasi, demokratik islahatlar sahəsində qazanılmış uğurlar, ölkəmizin liderlik zirvəsini qorunması bunu təsdiqləyən başlıca amildir. Prezident İlham Əliyev dünya səviyyəsində Azərbaycanın söz sahibi olduğunu, həmçinin XXI əsrdə dövlətlərin böyüklüyünün, yaxud kiçikliyinin fərq etmədiyini, dövlətin müstəqil siyasət yeridə bilməsinin əsas olduğunu ortaya qoydu. Ölkə rəhbərinin 19 illik siyasətinin kulminasiyası isə 2020-ci ildə baş verən 2-ci Qarabağ müharibəsində qazanılmış möhtəşəm qələbə və Qarabağın düşmən işğalından azad edilməsidir. Ali Baş Komandan böyük peşəkarlıq və əzmlə Azərbaycan Ordusunun başında dayandı, xalqımızın ən böyük arzusunu və Ulu Öndərin vəsiyyətini yerinə yetirdi. 30 il işğal altında qalan torpaqlarımız düşməndən azad edildi. Bu Qələbə sayəsində regionda yeni reallıqlar yarandı. Siyasi, iqtisadi imkanlarının genişləndirilməsi Azərbaycanın beynəlxalq arenadakı mövqelərini möhkəmləndirib. Bu gün regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyada bir çox transmilli layihələrin təşəbbüskarı və uğurlu icraçısı, etibarlı tərəfdaş kimi tanınır.

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev "Şərq"ə açıqlamasında dövlət başçısı İlham Əliyevin qlobal miqyasda böyük nüfuz sahibi, güclü bir lider olduğunu deyib. Professor Azərbaycana uzaqgörən, hər şeyi ölçüb-biçən, vaxtında düzgün qərar qəbul edən, dünyanın və regionun problemlərini dərindən bilən bir insanın rəhbərlik etməsindən fəxr duyduğunu söyləyib:** "İlham Əliyev peşəkar diplomat olmaqla yanaşı, bir çox sahələri, iqtisadiyyatı da çox gözəl bilir. Hər şeyi gələcəyə hesablanmış şəkildə həyata keçirir. 19 il ərzində dövlətə rəhbərlik etməsi və seçkilərdə 80 faizdən çox səs toplaması göstərir ki, xalqımızın ona inamı, etimadı böyükdür. Əmin olun, hazırda seçki keçirilsə, İlham Əliyevin səs faizi 95 olacaq. Prezidentimiz həddindən artıq xarizmatik liderdir. Eyni zamanda dövlətə, xalqa durmadan, fasiləsiz xidmət göstərən liderdir. Ümummilli Lider xilaskar statusunda idisə, İlham Əliyev bayraqdar və xidmətkar statusundadır. Dövlət başçımızın Azərbaycanın üçrəngli bayrağını Qarabağdan asması 216 illik işğal siyasətinə son qoyması deməkdir. Ölkə rəhbəri 44 günlük müharibədə sadəcə xalqımızın milli heysiyyətini, qrururunu, şərəfini özünə qaytarmadı, həm də xalqın inamsızlığını aradan qaldırdı. İlham Əliyev dünya siyasətinə müasir müharibənin aparılması taktikasını göstərdi. Daha az itki ilə daha böyük və gözlənilməyən nailiyyətin əldə oluna biləcəyini hamıya sübut etdi. Şuşanın alınması çoxları üçün gözlənilməz idi. Dövlət başçısı eyni zamanda "Böyük Qayıdış" üçün 12 yol xəritəsi hazırlatdırıb".

**C.Nuriyev qeyd edib ki, İlham Əliyev paralel islahatlar modeli həyata keçirir:** "Dövlət başçısı həm siyasi, həm iqtisadi, həm də hüquqi islahatları eyni anda reallaşdırır. Gənclərin önə çəkilməsi, onlara etimad göstərilməsi də gələcəyə hesablanmış, insan kapitalının formalaşmasına yönəlmiş mühüm addımlardandır. Prezident Cənubi Qafqazda yeni siyasi paradiqma gündəmə gətirdi. Bu, Azərbaycanın simasında bütöv bir bölgədə sabitliyi, stabilliyi təmin etmək və dayanıqlı inkişafa nail olmaqdan ibarətdir. Həmçinin uzun müddət dünyada gedən proseslərdən təcrid olunmuş türk ölkələrini bir araya gətirdi. İlham Əliyev Türk Dövlətləri Təşkilatının həmmüəlliflərindəndir. Bu təşkilatın güclənməsində, təşkilatlanmasında ölkə rəhbərinin müstəsna xidmətləri var. Ölkə başçısı heç kimin dilə gətirmədiyi Cənubi Azərbaycandakı soydaşlarımızın məsələsini ən sərt və açıq formada gündəmə gətirməklə bütün dünya azərbaycanlılarının lideri olduğunu növbəti dəfə sübut etdi".

**İsmayıl Qocayev**

# Bakıda Yeni il hazırlıqları: nümunəvi küçələr yaradılacaq



**31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni il şənliklərinini keçirilməsi ilə əlaqədar Bakı Şəhər və paytaxt rayonları İcra Hakimiyyətləri tərəfindən müvafiq hazırlıq tədbirləri həyata keçirilir.**

Bu barədə "Şərq"ə Bakı şəhər İcra Hakimiyyətindən məlumat verilib.

Artıq şəhərin parkları, meydan və küçələrinin bəzədilməsi, burada yeni il atributlarının, işıqlı çilçıraqlar və digər bəzəklər quraşdırılıb, bayram yarmarkaları yaradılıb.

Cənab Prezidentin uğurlu siyasəti nəticəsində ölkəmiz sürətlə inkişaf edir və bu gün xalqımızın əhval ruhiyyəsi çox yüksəkdir, buna uyğun olaraq da şəhərimizdə 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xüsusi hazırlıq və tərtibat işləri həyata keçirilir. Ənənəvi olaraq bayram tərtibatı işləri görülən Neftçilər prospekti, Yusif Səfərov və Niyazi küçəsindən əlavə bu il İstiqlaliyyət küçəsi və Azərbaycan prospekti də bayramla bağlı bəzədilmişdir. Azneft dairəsində isə xüsusi və fərqli tərtibatla 20 metr hündürlüyündə yeni il şam ağacı kompleksi yaradılmışdır. Həmçinin bu işlər ictimai iaşə obyektlərini də əhatə edir.

Bundan başqa həmişə olduğu kimi paytaxtımızda insanların daha çox bayramı qeyd etdiyi məkanlar Fəvvarələr meydanında, Dənizkənarı Bulvarda, İçərişəhərdə bu il əvvəlki illərdən fərqli və geniş formada olaraq xüsusi proqram əsasında bayram hazırlıqları görülmüşdür.

Həmçinin rayon icra hakimiyyətlərinə tövsiyə edilmişdir ki, bayramla bağlı ərazilərində nümunəvi küçə hazırlansın.

Eyni zamanda təsdiq olunmuş dislokasiyalara uyğun olaraq Bakı Şəhər Ticarət və Xidmət Departamenti tərəfindən əsas etibarı ilə metro stansiyalarının yaxınlığındakı yerlərdə çadırlar qurulub, şəhər sakinləri və qonaqlar üçün bayram yarmarkaları təşkil olunub.

Hazırlıq işləri çərçivəsində dekabrın 17-də Bakı şəhərinin ərazisində "Yeni ilə təmiz şəhərlə" devizi ilə ümumşəhər daxili iməciliyi keçirilib. Şəhərin əksər meydan və parklarında yeni il şam ağacları quraşdırılıb və hazırlıq işləri görülüb.

Ənənəvi olaraq dekabrın 31-i saat Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən Dənizkənarı Milli Parkda möhtəşəm bayram atəşfəşanlığı təşkil ediləcəkdir.

# Putin İlham Əliyevə təbrik ünvanlayıb

"Dost Azərbaycan Sizin rəhbərliyinizlə sosial-iqtisadi inkişaf yolunda inamla irəliləyir"



**Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb.**

*Təbrikdə deyilir:*

"Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Dost Azərbaycan Sizin rəhbərliyinizlə sosial-iqtisadi inkişaf yolunda inamla irəliləyir, beynəlxalq arenada mövqelərini möhkəmləndirir. Dövlətlərimiz arasında müttəfiqlik qarşılıqlı fəaliyyətinin nizamlanmasına və möhkəmlənməsinə Sizin şəxsi töhfənizi yüksək qiymətləndiririk.

Bizim etimada və yoldaşlığa əsaslanan münasibətlərimizi olduqca yüksək dəyərləndirirəm. Əminəm ki, biz gündəlikdə duran aktual ikitərəfli və regional məsələlərə dair sıx birgə işimizi davam etdirəcəyik.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, firavanlıq və uğurlar diləyirəm. Fürsətdən istifadə edib ailənizə ən səmimi salamlarımı çatdırmağınızı xahiş edirəm".

# Zelenski Prezident İlham Əliyevi təbrik edib

"Azərbaycanın Ukrayna xalqına göstərdiyi yardımı yüksək qiymətləndirirəm"



**Ukraynanın Prezidenti Volodimir Zelenskidən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu gəlib.**

Təbrikdə deyilir:

"Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Cənab Prezident, Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası həm Cənubi Qafqaz regionunda, həm də beynəlxalq arenada öz mövqelərini möhkəmləndirərək mühüm uğurlara nail olmuşdur. Əminəm ki, bu, gələcəkdə də davam edəcək.

Azərbaycanın Ukraynanın suverenliyi və ərazi bütövlüyünə daimi dəstəyini, eləcə də Rusiya ilə müharibə şəraitində Ukrayna xalqına göstərdiyi yardımı yüksək qiymətləndirirəm. Biz bu cür dəstəyin artacağına ümid edirik.

Əminəm ki, ikitərəfli münasibətlərin mövcud potensialını birgə səylərlə maksimum surətdə reallaşdıra və Ukrayna-Azərbaycan əməkdaşlığını Qara dəniz-Xəzər regionunda təhlükəsizlik və sabitlik naminə daha da möhkəmləndirə bilərik.

Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, güclü və firavan dövlətinizin gələcək inkişafı yolunda uğurlar və yeni nailiyyətlər arzu edirəm".

# Hərəkətə növbəti dəfə şərait yaradılıb

Xankəndi-Laçın yolunda sülhməramlıların 25 avtomobilinin hərəkətinə şərait yaradılıb



**Şuşadan keçən Xankəndi-Laçın yolunda Rusiya sülhməramlılarına məxsus daha 2 təminat avtomobilinin hərəkət etməsinə növbəti dəfə şərait yaradılıb.**

"Report"un aksiya keçirilən ərazidə olan əməkdaşı xəbər verir ki, nəqliyyat vasitələrinin maneəsiz şəkildə hərəkət etməsi təmin olunub.

Belə ki, Xankəndindən Laçın istiqamətinə Rusiya sülhməramlılarına məxsus 2 ədəd təminat avtomobili keçib.

Bu, bir daha onu sübut edir ki, yol aksiyanın keçirilməsinə baxmayaraq, humanitar məqsədlər üçün açıqdır. Hazırda aksiya davam edir. Bununla da gün ərzində hər iki istiqamətdə Rusiya sülhməramlılarına məxsus ümumilikdə maneəsiz hərəkət edən avtomobillərin sayı 25-ə çatıb.

# "Zalda heç kimin sözü kəsilməyib"

Sahibə Qafarova: "Müzakirələr hamının razılığı ilə dayandırılıb"




**Milli Məclisdə iki deputat çıxışa yazıldıqları halda danışa bilməməkdən şikayətləniblər. Deputat Erkin Qədirli deyib ki, çıxışa yazılıb danışmaq istəyəndə, məsələnin səsə qoyulması tələb olunur və bu hal dəfələrlə təkrar olunub. Deputat bu halla tək özünün qarşılaşmadığını da söyləyib:**

"Bu, yalnız mənə görə olmur, başqa deputatlar da belə hallarla qarşılaşır. O səbəbdən də bəzən bizim çıxış etmək imkanımız olmur".

Deputat Hikmət Babaoğlu da eyni məsələni qaldırıb: "Burada bəzi deputatlar özləri çıxış edir, sonra da deyir ki, məsələ səsə qoyulsun. Başqaları da çıxış etmək istəyir, hamının söz demək hüququ var. Xahiş edirəm, bu replikaya son qoyun".

Sahibə Qafarova isə bildirib ki, zalda hələ heç kimin sözü kəsilməyib: "Kim yazılırsa, nəm hamıya söz verirəm. Xahiş edirəm, bunu nəzərə alarsınız. Müzakirələr hamının razılığı ilə dayandırılıb. İkincisi, siz qeyd edirsiniz, hamının danışmaq hüququ var. Burada elə bir deputat yoxdur ki, buna şübhəsi olsun. Kim çıxışa yazılırsa, ona söz verirəm".

**İsmayıl**

# Qışda Azərbaycanda antibiotik böhranı yaşanacaq



**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) dərman təchizatı qrupu yoluxucu xəstəliklərin sayının artması ilə əlaqədar dünyada antibiotik qıtlığının yarandığını bəyan ediblər.**

Araşdırmalara görə 35 ölkənin 80%-də "Penisilin" əsaslı preparatların, ABŞ, Kanada və Avropa İttifaqının 25 ölkəsində isə "Amoksisillin"in qıtlığından şikayətlənirlər. Kiçik ölkələrdə hələlik bununla bağlı vəziyyət stabildir.

Azərbaycanda bununla bağlı vəziyyət nə yerdədir? Yaxın gələcək üçün ölkəmizin antibiotik çatışmazlığı yarana bilərmi?

Milli.Az xəbər verir ki, tibb elmləri doktoru, professor Adil Qeybulla bizim.media-ya problemin səbəbini COVID pandemiyası zamanı bu pereparatdan çox istifadə edilməsi ilə əlaqələndirib:

"Əslində adambaşına düşən antibiotik istehlakçına görə bu problemin yaranması gözlənilən idi. Bu məsələnin kökü Rusiya-Ukrayna müharibəsinə dayanır. Hazırda Ukraynanın özündə əczaçılıq təchizatının infrastrukturu tamamilə dağıldığına görə ayrı-ayrı ölkələrdə də dərman maddələrinin qıtlığı yaranıb.

Hətta Avropanın inkişaf etmiş ölkələrində belə bu problem dərinləşib. Müharibə iqtisadiyyata və dərman istehsalına təsir edib. Təkcə antibiotik deyil, xeyli dərman preparatlarının və bəzi qida maddələrinin yoxa çıxması nəzərə çarpır. Təbii ki, Azərbaycanda da bununla bağlı narahatlıq özünü göstərir".



# Naxçıvanda yeni dönəm başlayır

## Fuad Nəcəfli Naxçıvan ictimaiyyətinə təqdim olundu

**Dekabrın 23-də Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev Naxçıvan Muxtar Respublikasının səlahiyyətli nümayəndəsi Fuad Nəcəflini muxtar respublikanın ictimaiyyətinə təqdim edib. Samir Nuriyev təqdimat mərasimində çıxış edərək Naxçıvan Muxtar Respublikasının həmişə Prezident İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunduğunu, ölkəmizdə aparılan quruculuq işlərinin tərkib hissəsi kimi Naxçıvanın inkişafı istiqamətində mühüm tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb.**

Prezident Administrasiyasının rəhbəri qeyd edib ki, Prezident İlham Əliyev sosial-iqtisadi inkişaf məsələlərinin həlli ilə yanaşı, həm də dövlət idarəçiliyinin təkmilləşdirilməsini, bütün sahələrdə şəffaflığın təmin edilməsini, inkişafa mane olan mənfi halların aradan qaldırılmasını əsas vəzifələrdən biri kimi müəyyənləşdirib. Bildirilib ki, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəliyi institutunun yaradılması effektiv idarəçiliyin təmin edilməsi, vətəndaşla dövlət orqanları arasında dialoqun müasir tələblər səviyyəsində və qanun çərçivəsində qurulması məqsədi daşıyır. S.Nuriyev muxtar respublikanın yeni rəhbərliyinin qarşıda duran vəzifələrin vaxtında, tam və səmərəli şəkildə icrasını təmin etməklə Azərbaycan Prezidentinin göstərdiyi böyük etimadı doğruldacağına ümidvar olduğunu deyib.

**Millət vəkili Vüqar Bayramov deyib ki, Naxçıvanda Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsinin təyin edilməsi struktur islahatlarının davamı kimi qiymətləndirilməlidir:** "Daha öncə işğaldan azad olunan ərazilərimizdə də xüsusi nümayəndəliklər formalaşdırılıb. Xüsusi nümayəndəliklərin formalaşdırılması iqtisadi rayonlar üzrə idarəetmədə yeni yanaşmadır. Bu, eyni zamanda qərarların qəbulunun çevikliyinin artırılması, şəffaflığın və hesabatlılığın gücləndirilməsi baxımından da vacibdir. Naxçıvan Muxar Respublikasının büdcəsinin gələn il üçün gəlirləri 635,3 milyon manat proqnozlaşdırılsa da, bunun 449.8 milyon manatını dövlət büdcəsindən ayrılan dotasiya təşkil edəcək. Naxçıvanın öz gəlirləri isə 185,5 milyon manat olacaq. Göründüyü kimi, Naxçıvanın büdcəsinin 70 faizi dövlət büdcəsi hesabına formalaşır. Bu həm də o deməkdir ki, Naxçıvanın gəlirləri öz xərclərinin cəmi 30 faizini ödəyə bilir. Bu baxımdan yeni struktur islahatı Naxçıvan iqtisadiyyatının liberallaşmasına, sahibkarlar üçün yeni imkanların yaradılmasına və eləcə də yerli gəlirlərin çoxalmasına imkan yaradacaq. Bu isə həmçinin Naxçıvanın iqtisadi baxımdan da yeni mərhələyə qədəm qoyması deməkdir".

**İsmayıl**

# Son hadisə korrupsiya sxeminin yalnız görünən hissəsidir

## Belçika polisindən ölkəmiz əleyhinə qəbul edilən bütün qətnamələrin korrupsiya ekspertizasının keçirilməsini tələb etməlidir



**Parlamentin iclasında millət vəkili Zahid Oruc bildirib ki, dekabrın 9-da Belçika polisi Avropa Parlamentinin viste-prezidenti Yeva Kaylini 4 nəfər ortağı ilə 1.5 milyon avro nağd pulla birlikdə həbsi haqqında dünya və ölkə mediasına ətraflı məlumat verib.**

Lakin Avropa siyasi institutlarındakı son hadisə korrupsiya sxeminin yalnız görünən hissəsidir: "On illərdir dövlətimizi ləkələməyə çalışan və "qara siyahı"lara salanların siyasi riyakarlığı inkaredilməz dəlillərlə ortadadır. Ötən ilin noyabrında "Ermənistana qarşı təcavüz" adlı qətnamənin müəllifləri indi həbsə atılıblar. Təkcə Avropa Parlamentində deyil, Avropa Şurası Parlament Assambleyasında, üzv ölkələrin siyasi partiyalarında, xüsusilə də Belçika və Fransanın inzibati-bürokratik sistemində böyük erməni şəbəkəsi fəaliyyət göstərir. Müxtəlif təşkilatlar arxasında gizlənənlər, Landromat və Panama, Peqasus kimi hibrid müharibə müəllifləri indi Pandora qutusundan çirkli pullarla birgə çıxıblar. Avropa Parlamentində "siyasi korrupsiya şəbəkəsi"nin digər rəhbəri Rafael Qluksmandır. Bu il fevralın 8-də Avropa Parlamentinin İnsan Hüquqları üzrə Alt Komitəsi "Azərbaycanda insan hüquqları pozuntuları və Bakının Aİ-nin siyasətinə müdaxiləsi"nə dair, martın 11-də "Qarabağda mədəni irsin məhv edilməsi haqqında" qətnamə qəbul edib. Vətən müharibəsinin ikinci ildönümü ərəfəsində və qlobal enerji böhranı fonunda Azərbaycanın geosiyasi əhəmiyyətinin artdığını görən qüvvələr, "hərbi əsirlər videosu"nu gündəmdə saxlayaraq Cosef Borreldən qaz müqaviləsini dayandırmağı tələb etdilər. Oktyabrın 11-də AŞ PA Komitəsində "Azərbaycanda jurnalistlərin və hüquq müdafiəçilərinin həyatına təhdidlər", daha sonra ingiltərəli deputat Hanna Bardelli Azərbaycan üzrə məruzəçi, 14 oktyabrda ATƏT PA-nın payız sessiyasında "Ermənistan və Azərbaycan arasında hərbi əməliyyatlar, o cümlədən yaşayış məntəqələrinə və mülki infrastruktura hücumlar" və "Avropa Şurasına üzv dövlətlərdə LGBT paradlarının və digər tədbirlərin keçirilməsi ilə bağlı qadağalar"a dair dinləmələr təşkil edilib".

**Z.Oruc qeyd edib ki, AŞ Monitorinq komitəsi Azərbaycan üzrə Liz Kristofersonu yeni həmməruzəçi təyin edib:** "Nəhayət, may ayının 2-də, Azərbaycanda jurnalist, bloger və hüquq müdafiəçilərinə qarşı təhdidlərlə bağlı qətnamə 38 avrodeputatın imzasına əsasən, 3-5 nəfərlik boş zalda səsə qoyuldu. Avroparlamentin 705 üzvünün mövqeyi kimi təqdim edildi. Beləliklə, Xocavənddə qızıl-mis oliqarxlarının Avropaya uzanan əlləri torpaq uğrunda mübarizə deyil, mənfəət davasıdır. Avropalı deputatlara qızıl yataqlarının əllərindən çıxması birbaşa iqtisadi zərbədir. Dünya erməniçiliyi və təəssübkeşlərinin üst təbəqəsi üçün Qarabağ ofşor zonadır. Lakin yunan əsilli, erməni dostları qrupunun lideri Yeva Kaylinin həbsinin Ermənistana böyük zərbə olduğunu nəzərə alaraq, Azərbaycan dövləti Belçika polisindən ölkəmiz əleyhinə qəbul edilən bütün qətnamələrin korrupsiya ekspertizasının keçirilməsini tələb etməlidir".

**İsmayıl**



# Nəcməddin Sadıxov mühakimə olunmalıdır

## Fazil Mustafa: "Günahsız ölən əsgər və zabitlərimizin haqqı qaytarılmalıdır"

**"Tez-tez bir ifadə işlənilir ki, gedənin dalınca danışmazlar. Amma bizdə gedənin daha çox tumarlanması, qorunması prosesi baş verir. O gedən də yüzlərlə insanı gedər-gəlməzə göndərib".**

Bunu Milli Məclisin dünənki iclasında deputat Fazil Mustafa deyib. Parlament üzvü bildirib ki, bu günlərdə Azərbaycan müdafiə nazirinin sabiq müavini, Müdafiə Nazirliyinin Baş Əməliyyat İdarəsinin sabiq rəisi general-mayor Elbrus Orucov müsahibə verib: "O, Azərbaycan Ordusunda kifayət qədər başqa ölkələrin, xüsusilə Rusiya xüsusi xidmət orqanlarının agenturasının mövcud olduğunu bildirib. Hətta birbaşa keçmiş Baş qərargah rəisi Nəcməddin Sadıxovu suçladı. Əməliyyat planlarının satılması, müxtəlif əməliyyat proseslərinin pozulması istiqamətində açıqlama verdi. Hüquq-mühafizə orqanları açıq-aşkar Nəcməddin Sadıxovu mühakimə etməlidirlər. Onun mühakiməsi ona görə vacibdir ki, günahsız ölən əsgər və zabitlərimizin ölümündən sonra haqqını qaytara bilək. Bu proseslərə məsuliyyətli yanaşmalıyıq".

*Deputat qeyd edib ki, ötən gün Türkiyənin Prezident kitabxanasında keçirilən sərgidə xatırladıldı ki, Prezident İlham Əliyev Şuşanın azad olunması ilə bağlı təqdim olunan planı geri çevirib və başqa planla Şuşanı azad edib:* "Bəlkə də aprel döyüşlərində də bəzi planlardan xəbəri olsaydı, bunu geri çevirərdi, bu qədər əsgər və zabitimiz günahsız həyatını itirməzdi".

**İsmayıl**

# Ermənistan Moskva danışıqlarına gəlmədi

## Lavrov İrəvanın ünvanına tənqidlər səsləndirdi

**Moskvada Rusiya xarici işlər naziri Sergey Lavrov və Azərbaycan XİN rəhbəri Ceyhun Bayramov arasında ikitərəfli görüş keçirilib. Görüşün protokol hissəsi mətbuat nümayəndələri üçün açıq olub. Xatırladaq ki, Moskvada Ermənistan xarici işlər naziri Arorat Mirzoyanın iştirakı ilə üçtərəfli görüş nəzərdə tutulub. Lakin Mirzoyan Laçın yolundakı aksiyaları bəhanə edərək üçtərəfli görüşdən və Kremlin təklifindən imtina edib.**

Rusiya xarici işlər naziri Sergey Lavrov azərbaycanlı həmkarı Ceyhun Bayramovla görüşü zamanı Ermənistanın bu günə planlaşdırılan Rusiya-Azərbaycan-Ermənistan xarici işlər nazirlərinin üçtərəfli görüşündə iştirak etmək imkanını qaçırdığını qeyd edib: "Biz bu tədbirə hazırlaşmışdıq. Lakin son anda erməni həmkarlarımız Moskvaya gəlməkdən imtina etdilər. Təəssüf ki, bu cür imkan qaçırıldı. Bununla belə, biz sizinlə ölkələrimiz qarşısında dayanan tapşırıqları məmnuniyyətlə müzakirə edəcəyik. Üçtərəfli razılaşmaların həyata keçirilməsi ilə bağlı iş gedir. Amma bu işi sürətləndirmək istəyərdik. Əminəm ki, müntəzəm görüşmək, razılaşmaq, etimadı möhkəmləndirmək və bütün problemlərin nizamlanması üçün zəmin yaratmaq lazımdır".

### "Bu gün biz olduqca məhsuldar görüş keçirdik"

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov rusiyalı həmkarı Sergey Lavrovla görüşü zamanı xatırladıb ki, bu il Azərbaycanla Rusiya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi tamam olur: "Bu ilin yekunlarına dair geniş spektrli, çoxşaxəli söhbətlər etdik. Ölkələrimiz arasında imzalanan sənədlər yüksək səviyyədə tərtib edilib və üzümüzə gələn il bir sıra sənədlərin reallaşdırılmasının şahidi olacağıq". C.Bayramov qeyd edib ki, bu gün Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması üçün danışıqların üçüncü raundu keçirilməli idi: "Bu gün həmçinin Şimal-Cənub layihəsi barədə söhbətlər apardıq. Hansı ki, bir sıra komponentlərden ibarətdir. Bura ilk növbədə nəqliyyat və dəmir yolu daxildir. Eyni zamanda bu gün biz bu layihənin imkanlarının genişləndirilməsi, elektrik enerjisinin ötürülməsi və humanitar mövzularda söhbətlər apardıq".

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Ermənistan tərəfinə çağırış edib. C.Bayramov rusiyalı həmkarı Sergey Lavrovla danışıqlarının yekunlarına dair birgə mətbuat konfransında bildirib ki, Ermənistan öz öhdəliklərini yerinə yetirmir: "Ermənistan daim iddia edib ki, danışıqlara hazırdır. Lakin danışıq aparmaq istəyən ölkə bizim ərazilərimizi işğal edərək orada bitib-tükənməz səngərlər, bunkerlər tikib, milyonlarla piyada əleyhinə və ondan bir az miqdarda tank əleyhinə mina basdırıb. Bir ölkə əgər münaqişəni danışıqlar yolu ilə həll etməyə həqiqətən də çalışırsa, 30 il ərzində ərazilərimizdə böyük hərbi təyinatlı işlər görməməli idi".



**Ceyhun Bayramov:** "Qarabağda Vardanyanın əməlləri cinayət xarakterlidir, buna tezliklə son qoyulmalıdır və bu nə qədər tez baş versə, bir o qədər yaxşıdır"

**Sergey Lavrov:** "Azərbaycanın sülh müqaviləsi ilə bağlı təklifləri hüquqi sənəd üçün zəmin yaradacaq"

### "Laçın yolunun blokadası ilə bağlı məlumatlar həqiqəti əks etdirmir"

Azərbaycan XİN rəhbəri deyib ki, Laçın yolunun blokadası ilə bağlı məlumatlar həqiqəti əks etdirmir. Nazir bildirib ki, dinc etiraz aksiyası keçirən ekofəallar öz tələblərini dəqiqliklə ifadə ediblər. Belə ki, onlar ekoloji terrora qarşı olduqlarını bəyan ediblər. XİN rəhbəri vurğulayıb ki, təcili tibbi yardım maşınları, Rusiya sülhməramlı kontingentinin konvoyu, BQXK-nin avtonəqliyyat vasitələri Laçın-Xankəndi yolundan maneəsiz hərəkət edir.

### "Biz Ermənistana bir ay bundan öncə təkliflər göndərmişdik"

*Ceyhun Bayramov bildirib ki, ən son məqamda danışıqların üçüncü raundunun baş tutmayacağından xəbər tutduq:* "Xatırladım ki, danışıqların ilk raundu oktyabr ayında Cenevrədə, ikinci raundu isə noyabrda Vaşinqtonda baş tutub və üçüncü raundun Moskvada keçirilməsi planlaşdırılırdı". Nazir qeyd edib ki, Ermənistan tərəfi Moskvada planlaşdırılan görüşdən az əvvəl Bakıya yeni təkliflər paketi təqdim edib. Amma biz Ermənistana bir ay bundan öncə təkliflər göndərmişdik. Ermənistan tərəfi təklifləri təqdim etdikdən sonra bəyan etdi ki, guya, Azərbaycan görüşdən imtina edir və bununla da dezinformasiya yayaraq yanlış ictimai fikir yaratmağa çalışdı".

### "Özünü erməni icmasının rəhbəri kimi təqdim edən şəxsin Qarabağa heç bir aidiyyəti yoxdur"

XİN başçısı bildirib ki, Laçın-Xankəndi yolunda keçirilən dinc etiraz aksiyasının əsas səbəbi Qarabağda yerləşən faydalı qazıntı yataqlarının ermənilər tərəfindən qanunsuz istismar olunmasıdır: "Ermənistan bizim faydalı qazıntı yataqlarımızı qanunsuz şəkildə və barbarcasına istismar edib. Bunu təsdiq edən xarici və yerli mütəxəssis rəyləri mövcuddur. Bu rəylər sübut edir ki, Azərbaycanın ekologiyasına külli miqdarda ziyan vurulub. Belə olan halda Azərbaycan ictimaiyyəti öz narazılığını bildirməli idi. Azərbaycan hər zaman səbirli mövqe nümayiş etdirib. Bu məsələ ilə də bağlı keçən ilin noyabrında müraciət edilib və son iki ay ərzində bu müraciətlər daha da intensivləşdirilib, çünki son 2 ayda özünü erməni icmasının rəhbərləri kimi təqdim etməyə çalışanlar meydana çıxıb. Həmin şəxslərin Qarabağa heç bir aidiyyəti olmasa da, onlar özlərini rəhbər sayır və bu şəxslərin gəlişindən sonra ölkəmizin sərvətlərinin talanması daha da sürətlənib. Bu səbəbdən də son aylar ərzində Azərbaycan tərəfi ilə Rusiya sülhməramlı qüvvələri arasında danışıqlar aparılıb, razılığa gəlinib. Bundan sonra ərazinin monitorinqi üçün gedən azərbaycanlı mütəxəssislər ermənilər tərəfindən əraziyə buraxılmayıb. Aktivistlər və ictimaiyyət məsələnin danışıqlar yolu ilə həllinə bütün ümidlərini itirərək aksiya keçirmək qərarı qəbul etdi".

### "Onun əməlləri cinayət xarakterlidir"

Xarici işlər naziri qeyd edib ki, Ruben Vardanyanın Qarabağda olması yerli əhali üçün problemlər yaradır: "Eyni zamanda daha bir vacib faktor barədə danışmaq istəyirəm. Qarabağ regionuna yad olan elementlər, hazırkı vəziyyətdə mən Vardanyanı nəzərdə tuturam. Onun əməlləri cinayət xarakterlidir, buna tezliklə son qoyulmalıdır və bu nə qədər tez baş versə, bir o qədər yaxşıdır. Onun Qarabağda olması yerli əhali üçün problemlər yaradır, vətəndaşların reinteqrasiyasına mane olur. Onun gəlişindən qabaq pozitiv əlaqələr olub və bu faktor olduqca ziyanvericidir və stabilliyi pozur".

### "Təbii ki, proses asan deyil, çətindir"

Ceyhun Bayramov Paşinyanın yeni sülh təkliflərinə münasibət bildirib: "Azərbaycan və Ermənistan tərəfləri mütəmadi olaraq təkliflərin üzərində işləyir və bir-birinə təqdim edir. Sənədin bizi qane edib-etmədiyi barədə cavab vermək çətindir və bu, düzgün olmaz. Təbii ki, proses asan deyil, çətindir. Tərəflərin mövqeləri bir çox hallarda fərqlənir və buna görə də təkliflər bir neçə mərhələdə müzakirə olunmalıdır. Bu müzakirələr nəticəsində öz mövqeyini qarşı tərəfə daha aydın çatdırırsan və qarşı tərəfin mövqeyini daha yaxşı anlayırsan. Dünən Ermənistan Baş naziri bəyan etdi ki, təqdim etdikləri şərtlər əsasında razılaşma imzalamağa hazırdır. Lakin anlayırıq ki, bu formada müqavilə imzalanmır. Əgər bu məntiqlə çıxış etsək, o zaman biz oktyabrın 2-si Cenevrədə öz şərtlərimiz çərçivəsində müqavilə imzalamağa hazır idik".

### "Vardanyanın xahişi ilə Rusiya Prezidenti onu vətəndaşlıqdan çıxarıb"

Rusiya XİN rəhbəri Sergey Lavrov bildirib ki, Azərbaycan və Rusiya xarici işlər nazirlərinin Moskva görüşündə Laçın yolundakı vəziyyət və sülh müqaviləsi müzakirə olunub. Lavrov sülh müqaviləsi ilə yanaşı, görüşdə Azərbaycan-Ermənistan sərhədindəki vəziyyətin də müzakirə olunduğunu vurğulayıb. Nazir vurğulayıb ki, Rusiya Azərbaycan-Ermənistan sərhədinin delimitasiya prosesinə başlanmasının marağındadır. Lavrov deyib ki, Vardanyanın xahişi ilə Rusiya Prezidenti onu vətəndaşlıqdan çıxarıb. Onun Qarabağa getməsinin Rusiya ilə heç bir əlaqəsi yoxdur.

Lavrov bildirib ki, Azərbaycanın Ermənistanla sülh müqaviləsi ilə bağlı təklifləri hüquqi sənəd üçün zəmin yaradacaq. O, danışıqlar zamanı sülh müqaviləsi mövzusuna toxunduqlarını söyləyərək bildirib ki, tərəflərin mövqelərinin yaxınlaşması üçün hər şey edilməlidir. Rusiya XİN başçısı Azərbaycanın sülh müqaviləsi ilə bağlı təkliflərinin hüquqi sənəd üçün zəmin yaradacağını qeyd edib: "Rusiya sülhməramlıları Qarabağdakı filiz yataqları ilə bağlı yaranmış vəziyyətin nizamlanması və fikir ayrılıqlarının aradan qaldırılması üçün mütəmadi olaraq çalışır. Moskva davamlı və ədalətli sülhün bərqərar olmasında maraqlı olduğunu diqqətə çatdırıb. Danışıqlarda bütün üçtərəfli bəyanatların icra vəziyyəti təhlil edilib, nəqliyyat kommunikasiyalarının açılması və iqtisadi əlaqələrin bərpası məsələsi müzakirə olunub".

### Lavrov Paşinyanın sülhməramlılarla bağlı ittihamlarını əsassız adlandırıb

Rusiya XİN başçısı deyib ki, Qarabağdakı Rusiya sülhməramlı qüvvələrinin ünvanına səslənən ittihamlar əsassızdır: "Kimsə düşünürsə ki, BMT, ATƏT, hansısa Minsk qrupunun sülhməramlıları Qarabağda Rusiya sülhməramlılarını əvəz etməlidir, o zaman bu, tərəflərlə, ilk növbədə Azərbaycanla razılaşdırılmalıdır". Lavrov vurğulayıb ki, əgər Bakı və İrəvan Rusiya sülhməramlılarının xidmətlərindən imtina etmək istəsələr, danışıqlar masası arxasına oturub başqa variant haqqında düşünə bilərlər.

**İsmayıl**



# Vaxtı çatıb

## Azərbaycan bütün ərazilərinə nəzarət etməlidir

**Dünən Milli Məclisin payız sessiyası çərçivəsində növbəti plenar iclası keçirilib. İclasın gündəliyinə 39 məsələ daxil edilib. Öncə Milli Məclis doğum günü münasibəti ilə Prezident İlham Əliyevə təbrik məktubu ünvanlayıb. Sədr Sahibə Qafarova təklif edib ki, dövlət başçısı İlham Əliyevə Milli Məclis adından təbrik məktubu göndərilsin. Spiker deyib ki, Prezident İlham Əliyev vətənə dərin məhəbbət, səmimilik, sadəlik kimi yüksək mənəvi keyfiyyətlərə malikdir:**

"Prezident İlham Əliyevin siyasi diplomatik və sərkərdəlik məharəti sayəsində Azərbaycanın ərazi bütövlüyünün və tarixi ədalətin bərpa olunması ölkəmizin inkişafı tarixində yeni mərhələ açıb və Cənubi Qafqazda siyasi reallığı dəyişib. Ölkəmizin xoşbəxt gələcəyi bu gün İlham Əliyevin davam etdirdiyi quruculuq siyasəti ilə bağlıdır. Əminəm ki, Azərbaycan dünyanın sayılıb-seçilib ölkələri arasında öz yerini möhkəmləndirəcək. Təklif edirəm ki, doğum günü münasibətilə Prezidentimizə təbrik məktubu ünvanlayaq". Deputatlar sədrin bu təklifini alqışlarla qarşılayıblar. Prezident İlham Əliyevə ailəsi ilə birlikdə cansağlığı, Azərbaycanın firavanlığı və inkişafı naminə fəaliyyətində yeni-yeni uğurlar arzulayıblar. Daha sonra cari məsələlərlə bağlı çıxış edən deputatlar bir sıra problemləri gündəmə gətiriblər.

### "Ermənilərin yaşadığı ərazilərə Azərbaycanın dövlət orqanları da nəzarət etməlidir"

Deputat Ceyhun Məmmədov deyib ki, Qarabağın dağlıq hissəsində hazırda ermənilərin yaşadığı ərazilərə Rusiya sülhməramlıları ilə yanaşı, həm də Azərbaycanın dövlət orqanları da nəzarət etməlidirlər. Qeyd edib ki, rusiyalı sülhməramlıların müvəqqəti nəzarətində olan Azərbaycan ərazilərində təbii sərvətlərimiz separatçılar və ayrı-ayrı qurumlar tərəfindən qeyri-qanuni olaraq istismar olunur: "Azərbaycanın bununla bağlı dəfələrlə məsələ qaldırmasına baxmayaraq, nəinki bu məsələ həllini tapmadı, hətta sülhməramlılar oradakı separatçıların qalıqları ilə bizə qarşı təxribat həyata keçirməyə çalışdılar. Beləliklə, Andrey Volkov, separatçı Vitali Balasanyan və Ruben Vardanyan üçlüyünün məkrli niyyəti sayəsində azərbaycanlı mütəxəssislərin yerlərdə mineral yataqlarla bağlı monitorinq aparmasının qarşısı alındı. Hətta onlar Xankəndidə yaşayan erməniləri gətirərək, bu prosesə qarşı aksiya da təşkil etdilər. Laçın-Xankəndi yolunda keçirilən aksiyaya gəldikdə, bu, azərbaycanlı ekofəalların, vətəndaş cəmiyyəti nümayəndələrinin dinc tədbiridir. Bunu ermənilər, digərləri başqa yönə istiqamətləndirməyə çalışsa da, aksiyanın məqsədi bəllidir. Azərbaycanın dövlət qurumlarına, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə öz ərazilərimizdə qeyri-qanuni istismar olunan mədənlərə baxışın keçirilməsinə şərait yaradılsın".

### "Azərbaycan buna göz yummayacaq"

**C.Məmmədov qeyd edib ki, artıq Azərbaycanın bütün dünya tərəfindən tanınan ərazisinə tam nəzarət etməyinin vaxtı çatıb:** "Biz Vətən müharibəsində qələbədən sonra iki il gözlədik ki, bu istiqamətdə real addımlar atılsın, amma heç bir addım atılmadı. Oralar beynəlxalq hüquqa əsasən, Azərbaycan əraziləridir. Azərbaycanın bu ərazilərə tam nəzarət etməyə, ora Azərbaycanın dövlət qurumlarının daxil olmağına tam səlahiyyəti var. O baxımdan hesab edirəm ki, bizim həmin ərazilərə daxil olmağımızın tam vaxtıdır və Azərbaycan bunu ən qısa zamanda edəcək. Ermənilər bilsinlər ki, hansısa təxribatla bunun qarşısını ala bilməzlər. Bundan sonra da Azərbaycana məxsus təbii sərvətlərin ermənilər tərəfindən qanunsuz istismarına qətiyyən yol verilməyəcək. Azərbaycan buna göz yummayacaq. Dövlətimizin qətiyyətli mövqeyi sayəsində bu kimi hallara son qoyulacaq. Azərbaycan dövlətinin əsas hədəfi məhz öz ərazisində olan bütün məsələlərə tam nəzarəti özündə ehtiva edir. Qarşı tərəf bunu birdəfəlik anlamalıdır".

### "Rus jurnalisti təəccüblənir ki, Bakı pəncərələrində Türkiyə və Pakistan bayrağı var"

Deputat Razi Nurullayev Azərbaycanın ərazi bütövlüyünə şübhə ilə yanaşan ölkələrə etiraz notası verilməsini təklif edib: "Rusiyanın bir sıra ictimai-siyasi və media dairələrindən ölkəmizə yönəlik təxribatlara yol verilir. Biri Bakıya raket zərbələri endirməyi, biri haqq-hesab çəkməyi təklif edir, o birisi hədə-qorxu gəlir". Deputat bu ilin fevral ayında Azərbaycan və Rusiya prezidentləri arasında 43 maddədən ibarət müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında bəyannamə imzalandığını xatırladıb: "Bunların müttəfiqliyə münasibəti belədirsə, biz onlara necə güvənək? Rus jurnalisti təəccüblənir ki, Bakı pəncərələrində Türkiyə və Pakistan bayrağı var, niyə bir dənə də olsun Rusiya bayrağı yoxdur? Bu suala cavab hər kəsə aydındır, sualı verən rus jurnalistinə də. Biz müttəfiqlik bəyannaməsinə xələl gətirən, açıq-aşkar terrora və kütləvi insan tələfatına aparan çağırışlar edən Rusiyanın vəzifəli, ictimai və media şəxslərinə qarşı Rusiya dövləti tərəfindən daha təsirli tədbirlərin görülməsini tələb edirik. Digər tərəfdən, bir çox ölkələr hələ də "Dağlıq Qarabağ" ifadəsinə yol verir və zənnimcə, bunu qəsdən edir. Azərbaycanın ərazi bütövlüyünə şübhə ilə yanaşan və Azərbaycan adlarını təhrif edən ölkələrə nota verilməsini təklif edirəm".

### "Ən çox şikayət məhkəmələrlə bağlıdır"

**Milli Məclisin Regional məsələlər komitəsinin sədri Səyavuş Novruzov deyib ki, Azərbaycanda hüquqi islahatlar davam edir. Mütəmadi olaraq yeni hakimlərin təyin olunmasının şahidi oluruq. Deputat bildirib ki, bu gün məhkəmələrin üzərinə düşən işlərin sayı çoxdur:** "Buna görə də işlərə baxılması gecikir. Bu gün hüquq-mühafizə orqanları içərisində ən çox şikayət məhkəmələrlə bağlıdır. Bu şikayətlər həm proseslə, həm ədalətsiz qərarla bağlıdır. Əgər vətəndaşın narazılığı polisdən, prokurordan yox, məhkəmədən olursa, deməli, iş düzgün gedir. Azərbaycandan Avropa Məhkəməsinə kifayət qədər şikayətlər daxil olur və prosesin düzgün aparılmamasına görə dövlətimiz həmin insanlara vəsait ödəməli olur. Düzgün aparılmayan prosedur varsa, artıq məhkəmənin çıxardığı qərar ədalətli ola bilməz. Hər bir prosedur qayda düzgün həyata keçməlidir. Yeni təyin olunan hakimlər buna diqqət etsinlər".

### "Kimin nə cürəti var ki, bizi qınasın?"

**Razi Nurullayev ölkədə də bəzi xainlərin olduğunu söyləyib:** "Vətəndaş cəmiyyəti nümayəndələrinin Laçın-Xankəndi yolunda aksiyasını lağa qoyur, ermənilər yönündən işıqlandırır, erməni separatçılara sətiraltı, bəzən isə açıq-aydın dəstək ifadə edirlər. Bu, xainlikdir. İmkan verilsə, yüz minlərlə insan o yolu iflic edər, separatçıların xainliyi nəticəsində yaxınlarını itirən ailələrin yarası hələ də istidir. Kimin nə cürəti var ki, bizi qınasın? Mən bu tip ictimai çəkili şəxslərin, vətəndaşların və digərlərinin ciddi şəkildə istintaqa cəlb edilməsini və barələrində araşdırmaların aparılmasını tələb edirəm. Biz Birinci Qarabağ müharibəsində 25 min, ikincidə 3000 şəhid vermədik ki, düşmən qüvvələrə satılmışlar onların ruhunu təhqir etsin? Çox şeydə güzəşt olar, amma vətəni, torpağı, ölkəni satmaq, onun üzərində karyera qurmaq, pul qazanmaq istəyənlərə, şəxsi inciklinin qisasını Ermənistana qahmar çıxmaqla Azərbaycan dövlətindən almaq cəhdinə güzəşt olmaz".

**"Bundan sonra Azərbaycana məxsus təbii sərvətlərin ermənilər tərəfindən qanunsuz istismarına qətiyyən yol verilməyəcək"**

### "İnflyasiya proqnozları özünü doğrultmadı"

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli deyib ki, yeni il gəlir, 2021-ci ildə olan pozitiv dinamika davam edir: "İstehsal artmaqdadır, yaxşı göstəricilərimiz var. Amma inflyasiya proqnozları özünü doğrultmadı. İnflyasiya 4 faiz, sonra isə 12,5 faiz proqnozlaşdırılsa da, 11 ayın göstəricilərinə görə 13,8 faiz, ərzaq inflyasiyası isə 20 faizin üstündədir. Əhalinin güzəranına inflyasiya çox mənfi təsir göstərir. Qarşıdan yeni il gəlir, ən çox inflyasiya ərzaq inflyasiyasıdır. Bütün dünyada ərzaq qiymətləri bu ərəfədə aşağı salınır. Çağırış edirəm ki, insanlar qiymət artımından yox, dövriyyədən qazanmağa üstünlük versinlər. Hamı süfrə aça bilsin".

### "Kimi vəzifədən çıxarırlarsa, külli miqdarda vəsaiti, mülkləri ortaya çıxır"

Deputat Sabir Rüstəmxanlı bildirib ki, Azərbaycanda vəzifəli şəxslərin gəlirlərinin aşkarlanmasının, şəffaflaşdırılmasının vaxtı çatıb: "Azərbaycanda kimi vəzifədən çıxarırlarsa, onun ya otağından, ya qarajından, ya da başqa yerdə külli miqdarda vəsaiti, yaxud ölkəmizdə, xarici ölkələrdə mülkləri, binaları ortaya çıxır. Bunlar dövlətin vəsaitləridir və bunu edənlərin əksəriyyəti vəzifədə olan insanlardır. "Cinayət yolu ilə əldə edilmiş əmlak" sözü sıravi vətəndaşa aid deyil, bu yolla əldə olunan əmlak daha çox vəzifəli, imtiyazlı adamlara aiddir. Vəzifəli şəxslər gəlirlərini şəffaf şəkildə təqdim etməlidirlər. Bununla bağlı qanunun qəbul edilməsinin vaxtıdır. Dünyanın inkişaf etmiş ölkələrində bu qanunlar imkan vermir ki, insan öz vəzifəsindən istifadə edib dövlətin malını talasın, korrupsiya ilə məşğul olsun".

### "Konstitusiyaya zidd təyin olunan hakimlər Konstitusiyanı necə qoruyacaqlar?"

**Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev deyib ki, Konstitusiyaya zidd təyin olunan hakimlər ədalət mühakiməsini həyata keçirə bilməzlər:** "Məhkəmələr və hakimlər haqqında" qanunda qeyd olunur ki, yuxarı instansiya məhkəmələrinin hakimi vəzifələrinə bir qayda olaraq ən azı 5 il birinci instansiya məhkəmələrinin hakimi işləmiş şəxslər təyin oluna bilər: "Bizə təklif olunan namizədlərin isə ən azı 12-nin hakim kimi 5 il iş təcrübəsi yoxdur". Q.Həsənquliyev bildirib ki, "Məhkəmələr və hakimlər haqqında" qanunun keçid müddəalarının 7-ci bəndindəki "Son yaş həddinə çatmış hakimin peşəkarlığından istifadə edilməsinə ehtiyac olduqda Məhkəmə Hüququ Şurasının təklifi ilə onun səlahiyyət müddəti 70 yaşınadək artırıla bilər" müddəası Konstitusiyaya ziddir: "Ali Məhkəmənin sədri də 68 yaşını - son yaş həddini keçdiyindən bu gün Konstitusiyaya zidd olaraq həmin vəzifəni tutur". Deputat vurğulayıb ki, sabiq Ombudsman Elmira Süleymanova qanunda nəzərdə tutulandan artıq vəzifədə qaldığı üçün Azərbaycanın beynəlxalq reytinqi aşağı salınıb: "Azərbaycan Respublikasının Konstitusiyası ən yüksək və birbaşa hüquqi qüvvəyə malikdir. Konstitusiyaya zidd təyin olunan hakimlər ədalət mühakiməsini necə həyata keçirəcəklər, Konstitusiyanı necə qoruyacaqlar?".

### "Dağlıq ərazilərdəki məktəblərdə tətil qış aylarında olsun"

**Deputat Müşfiq Cəfərov bildirib ki, dağlıq rayonlarda qış mövsümünün sərt keçdiyini nəzərə alaraq şagirdlərin davamiyyətinə yol, nəqliyyat, o cümlədən məktəblərdə istiliyin yetərincə olmaması kimi məsələlər təsir edir. Bildirib ki, məktəblərdə üç aylıq yay tətili məhz yay mövsümündə isti hava iqlimilə əlaqədardır:** "Dağlıq ərazilərdə isə yay mövsümü təhsil üçün, ümumiyyətlə, həyatın bu ərazilərdə canlanması üçün ən əlverişli vaxtdır. Hətta yay mövsümündə dağlıq ərazilərdə təhsil davam edərsə, Bakıdan, Gəncədən və digər böyük şəhərlərimizdən peşəkar müəllimlərimiz dağlıq ərazidə yerləşən kəndlərimizə ezam oluna, şagirdlər üçün tədrisi peşəkar səviyyədə rayon və ya kənd məktəbinin müəllimləri ilə birlikdə həyata keçirə bilər. Bu, təhsildə differensiallığın tətbiqinə də öz töhfəsini vermiş olar. Beləliklə, dağlıq ərazilərdə şagirdlərimiz qış aylarında uzunmüddətli qış tətilinə çıxmış olarlar və qış mövsümündə şagirdlərimiz yol, nəqliyyat və istilik problemlərilə üzləşməz. Dağlıq ərazilərə yay mövsümündə ezam ediləcək müəllim heyəti üçün isə modul tipli hostellər kəndlərdə fəaliyyət göstərən məktəb ərazisində inşa oluna bilər. Ya da yeni məktəb inşa olunduğu təqdirdə yuxarı mərtəbəsində yataq otaqları nəzərdə tutularsa, şəhərdən dağlıq rayona və ya kəndə ezam olunan müəllimi qane etmiş olar. Belə hostellərin kəndlərdə fəaliyyəti kənd turizminə də yeni imkanlar yaratmış olar". M.Cəfərovun qaldırdığı digər məsələ ölkəmizdə də iqlim müşahidə olunan iqlim dəyişikliyi ilə əlaqədardır: "Bu il payız aylarının əksər günlərini qərb bölgəsində, xüsusilə dağətəyi rayonlarda əsl qış ayı kimi yaşadıq. Mənə Gəncə şəhərinin bir sıra uşaq bağçalarından istifadə edən uşaqların valideynləri istilik sistemi ilə bağlı müraciət etdilər. Təklif edərdim ki, istilik verilməsi konkret zamanla deyil, iqlim və hava şəraitinə uyğun operativ şəkildə planlansın. Doğrudur, bunu əvvəlcədən hesablamaq olmur, o səbəbdən bu problemin qarşısını almaq üçün dağlıq rayonlarda oktyabrın 15-dən, dağətəyi və aran rayonlarında isə noyabrın 1-dən bağça və orta məktəblərin istiliklə təmin olunmasını təklif edərdim. Bu il bir bağçadan mənə verilən məlumata görə, qrupda olan uşaqların 15-i xəstələnib və bu da qrupun yarısı deməkdir. Belə olan halda davamiyyət aşağı düşür və uşaqlar tədrisdən geri qalırlar".

**İsmayıl Qocayev**

# Fuad Nəcəfli ziyalı bir nəslin nümayəndəsidir

## O, bütün gücünü səfərbər edib öz işinin öhdəsindən layiqincə gələcək



**"Azərbaycan Respublikasının hər yerində, həm mərkəzi icra orqanlarında, həm də yerli icra hakimiyyətlərində idarəetmə mexanizminin optimallaşdırılması prosesi gedir".**

*Bunu "Şərq"ə açıqlamasında "Səs" Media Qrupunun rəhbəri Bəhruz Quliyev deyib.*

Baş redaktor bildirib ki, aparılan islahatlar çevikliyi təmin etmək və vətəndaş məmnunluğunu artırmağa xidmət edir: "İslahatların, təyinatların əsas məqsədi şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə aparılmasıdır. Naxçıvanda gedən proseslər, islahatlarla bağlı atılan addımlar, verilən sərəncamlar, o cümlədən bölgəyə səlahiyyətli nümayəndənin təyin olunması idarəçilik mexanizmində optimallaşmanın təzahürüdür. Əminəm ki, Naxçıvana səlahiyyətli nümayəndə təyin olunan Fuad Nəcəfli ona həvalə olunan vəzifənin öhdəsindən gəlməyə, etimadı doğrultmağa çalışacaq. Bu, həqiqətən də cənab Prezident tərəfindən çox yüksək etimaddır. Heç bir ictimai-siyasi proseslərdə adı hallanmayan şəxsin yüksək vəzifəyə təyin olunması müəyyən müzakirələrə səbəb olur ki, görəsən, həmin şəxs tapşırıqların öhdəsindən gələ biləcək, ya yox. Dövlət başçısının əsas tapşırığı, tövsiyəsi odur ki, şəffaf və ədalətli idarəetmə olsun, korrupsiyaya qarşı mübarizə aparılsın və vətəndaşların məmnunluğu təmin olunsun. Fuad Nəcəfli dəyərli, mədəni bir ailənin üzvüdür, tanınan, ziyalı bir nəslin nümayəndəsidir. Hesab edirəm ki, F.Nəcəfli öz işinin öhdəsindən layiqincə gələcək. Bütün gücünü, imkanlarını səfərbər edərək dövlət başçısının zəruri tapşırıqlarını icra edəcək. Əminəm ki, bu sərəncam uğurlu olacaq".

**İsmayıl**

# Ortaq məxrəc tapılacaq

## Azərbaycanla Rusiyanın anlaşmaq ehtimalı daha çoxdur

**"Ermənistan Rusiyanın sinirlərinə toxunmağa davam edir və Moskva da əsəbindən İrəvanı baltalamaq üçün uyğun fürsətlər və vaxt axtarışındadır".**

*Bunu "Şərq"ə açıqlamasında siyasi şərhçi Aqşin Kərimov deyib. Analitik bildirib ki, Azərbaycan-Ermənistan münasibətlərinin normal axara düşməsi üçün səylərdə Rusiyanın monopoliya yaratmaq cəhdləri İrəvanın ikibaşlı, sürüşkən mövqeyi səbəbilə etibarsız status qazanır: "Ən azından Moskva belə düşünür, üstəgəl, Ermənistanın sürətlə Qərb istiqamətinə yuvarlanmasını nəzərə alsaq, Kremldəki narahatlığın dərəcəsinin nə qədər böyük olduğunu görə bilərik.*

Lakin Moskva yüz illərdir əlində kukla kimi saxladığı və o tərəf-bu tərəfə oynatdığı erməni amilinin indi ona naxələf çıxmasından doğan narahatlıqlarını cəza mexanizminə çevirməyi planlaşdırır. Son günlər isə Ermənistan siyasi rəhbərliyində anti-Rusiya əhvali-ruhiyyəsi daha da körüklənib. Şəxsən Baş nazir Nikol Paşinyan Cənubi Qafqazdakı proseslərdə rol ala bilməyən irrasional qüvvələrə güvənərək Kremli aşkar tərzdə tənbeh edir. Şuşa-Xankəndi yolundakı aksiyalar fonunda Paşinyan üç kartı Moskvaya qarşı oynadı. Birincisi, Rusiya sülhməramlı kontingentinin funksionallığını itirdiyinə dair işarələr verdi. Yəni rus qoşunları Laçın yolunu nəzarətdə saxlamaqla bağlı öhdəliklərini yerinə yetirmir. İkincisi, Paşinyan bu fikirlərinin praktiki şəkildə nəyə istiqamətləndiyini göstərmək üçün Qarabağa BMT və ATƏT-in faktaraşdırıcı missiyasının göndərilməsi çağırışlarını səsləndirir. Bunlar da azmış kimi, Paşinyan Moskvada planlaşdırılan Azərbaycan-Rusiya-Ermənistan xarici işlər nazirlərinin görüşünə öz baş diplomatını göndərməkdən imtina etdi. Azərbaycan da Rusiya sülhməramlılarının 10 Noyabr bəyanatında təsbit edilən formatda fəaliyyətini tələb edir. Lakin Bakı ilə İrəvanın məntiqi fərqli meyarlara əsaslanır. Bakının əlində təsir imkanları çoxdur. Üstəgəl,



**"Ermənistan yenidən ortada qalaraq vurnuxacaq"**

Azərbaycan Qərblə Rusiya arasındakı balansı qalib obrazda asanlıqla öz xeyrinə çevirə bilmək üçün çoxgedişli manevrlərə sahibdir. Moskva da, Qərb də bunu nəzərə alır.

Paşinyanın isə Rusiya sülhməramlılarına qəzəb püskürməsi üçün düz-əməlli bir əsası da yoxdur, çünki həmin qoşunlar Qarabağdakı erməni əhalinin qayğısına qalır və Azərbaycanın suveren hüquqlarının bərpasında maneələr yaratmağa çalışır.

Düzdür, Rusiya üçün Qarabağdakı ermənilərin hüquqları önəmli deyil, sadəcə, gələcəkdə barmaq yerləri saxlamaq üçün yenidən erməni amilindən gen-bol istifadə edilir, hərçənd ki, Bakı prosesləri öz xeyrinə çevirə bilmək imkanlarını inkişaf etdirir".

**Ekspert vurğulayıb ki, Moskvanın ambisiyaları, Bakının müqaviməti, Azərbaycan-Türkiyə müttəfiqliyi, Azərbaycan-Rusiya münasibətlərindəki müsbət tendensiyalar olmasaydı, bəlkə də, bu fikri söyləməkdə çətinlik çəkərdik:** "Deməli, buradan belə nəticəyə gəlmək mümkündür ki, Azərbaycanla Rusiyanın anlaşmaq ehtimalı daha çoxdur və bunun baş verəcəyi də görünəcək. Ermənistan yenidən ortada qalaraq vurnuxacaq. Lakin Moskva İrəvanın xətalarını bağışlamayacaq və Bakıya sərhədlərin delimitasiyasındakı dəstəyinin dozasını artıracaq. Bakı ilə Moskvanın Qarabağdakı mübahisə yaradan məsələlərdə çəkişməsi davam edəcək. Rusiya Azərbaycana məxsus qızıl yataqlarının talanmasından əl çəkmədiyindən iki dövlət bir-birinə qarşı kartlar qoymağı sürətləndirəcək, lakin nəticədə ortaq məxrəc tapılacaq".

**İsmayıl Qocayev**

# "Biz də Xankəndiyə, Xocalıya qayıtmaq istəyirik"

## Ceyran Əzizova: “Sağlıq durumum əlverişsiz olsa da, yenə də mən aksiyaya qoşulmağa hazıram”



**Xocalı sakini Ceyran Əzizova aksiyada iştirak etmək arzusunu bildirib. ”Xankəndi təkcə orada sonralar məskunlaşmış ermənilərə aid deyil, Xankəndi biz azərbaycanlıların doğma yurdu, Vətənidir. Bizim də orda evimiz, obamız olub. Amma erməni təcavüzü nəticəsində ev-eşiyimizdən didərgin salınmışıq.**

*Xankəndiyə, Xocalıya, Kərkicahana qayıtmaq bizim təbii haqqımızdır”, söyləyən Ceyran Əzizova Xocalıda yaşadığı illərdən, igid ordumuz, şəhidlərimiz sayəsində artıq tarixə qovuşmuş ”Dağlıq Qarabağ münaqişəsi” başlanan zaman azərbaycanlılara qarşı erməni separatçılarının törətdiyi soyqırımdan danışdı:*

- Mən Xocalı sakiniyəm. Bunu dünyaya bəyan edirəm. Xocalıda evim vardı, ailəmlə xoşbəxt yaşayırdıq. Evimiz Xocalı rayon polis şöbəsinin yaxınlığında idi. Fərdi ev idi, özümüz tikmişdik. Polis şöbəsinin ətrafında 2-3 bina vardı, həm də fərdi yaşayış evləri. Xocalı əvvəlcə Əsgəran rayonunun tərkibində idi, münaqişə alovlanan illərdə Xocalıya şəhər statusu verildi. Mən Xankəndidəki peşə təhsili məktəbində mühasib peşəsi üzrə təhsil almışam, İpək fabrikində çalışmışam. Təhsilimi başa vurduqdan sonra Xocalıdakı uşaq bağçasında mühasib işlədim. Xocalı faciəsindən 3 il əvvəl ailə qurmuşdum, 2 övladım dünyaya gəlmişdi. Biz də digərləri kimi rahat həyat yaşayırdıq, ailəmiz, gələcəyimiz, övladımızın xoş gələcəyi ilə bağlı arzularımız vardı. 1992-ci il fevralın 25-26-na keçən gecə qiyamətədək unudulmayacaq faciə yaşadıq. Bunu illərlə bizimlə qonşu olan, özlərini dost kimi göstərən ermənilər etdi. Həmin gecə bizim böyük nəslimizin də soyqırımı oldu. Atam, bacım, həyat yoldaşım, bir qaynım, digər qaynımın da 17 yaşlı oğlu, baldızımın yoldaşı, bibim uşaqları - bir nəsildən 68 nəfər ermənilər tərəfindən qətlə yetirildi. Yalnız qayınanam əsirlikdən qayıtdı, onu başqa girovlarla dəyişdirmişdilər. Həyat yoldaşıma ermənilər işgəncə verib, sonra da tankla üzərindən keçmişdilər... Hələ də xəbər almadığımız, öldüsü-qaldısı bilinməyən qohumlarımız var. Bəlkə onlar da separatçı erməni cəlladlarının qazdığı hansısa kütləvi məzarlıqda basdırılıb. Bilmirik... Dediyim odur ki, o vaxt da biz qonşu idik, amma qonşu saydıqlarımız, qapımızı açdığımız, çörək verdiyimiz adamlar bizə zülm etdilər. Üzümüzə yalandan gülə-gülə dağıdıcılıq fəaliyyəti ilə məşğul imişlər. Bu zülmü unutmaq olmaz. Unutsaq, şəhid ruhları bizi bağışlamaz. Axirətdə həyat yoldaşımın qarşısında başıaşağı olaram.

**"Qoy o sülhməramlılar mənim kimi minlərlə qarabağlını Xocalıya, Xankəndiyə aparıb evimizi bizə göstərsinlər və evimizdə yaşamağımıza imkan yaratsınlar"**

**C.Əzizova bildirdi ki, Xankəndi ermənilərinin haqqını qorumağa çalışan beynəlxalq güclər, bəzi dövlətlər azərbaycanlıların da 30 il əvvəl Xankəndidə, Xocalıda, Kərkicahanda, bütün Qarabağda yaşadığını, evləri-eşikləri olduğunu nəzərə alsınlar**: - Xankəndiyə, Xocalıya qayıtmaq, 30 il əvvəl zorla çıxarıldığımız evimizə biz də qayıtmaq istəyirik. Şəxsən mən Xocalıya qayıdacağım günü həsrətlə gözləyirəm və bu mənim həyat amalımdır. Sağlıq durumum əlverişsiz olsa da, yenə də mən aksiyaya qoşulmağa hazıram. Məsələ Vətənsə, heç vaxt heç nədən çəkinmirəm. Aksiyaya qoşulmağa hazıram. Mən də aksiyaya ”Xocalı sakiniyəm, məni Xocalıya buraxın” çağırışı ilə qatılmaq istəyirəm. Qoy o sülhməramlılar mənim kimi minlərlə qarabağlını Xocalıya, Xankəndiyə aparıb evimizi bizə göstərsinlər və evimizdə yaşamağımıza imkan yaratsınlar.

**Məlahət Rzayeva**

# Yaxın günlərdə Naxçıvan Ali Məclisi də özünü buraxacaq

## Heydər Oğuz: “Toxunulmazlıq statusunun arxasında gizlənərək Naxçıvanı talayan deputatlar cinayət məsuliyyətinə cəlb olunmalıdır”

**”Azərbaycan Naxçıvanda islahatlar aparmalıdır”. Bunu ”Şərq”ə Naxçıvandan olan tanınmış jurnalist, ”Ovqat.com” saytının baş redaktoru Heydər Oğuz Prezidentin Naxçıvana xüsusi səlahiyyətli nümayəndə təyin etməsinə münasibət bildirərkən deyib.**

O qeyd edib ki, Naxçıvanda sovet dövründən qalan çox axmaq bir struktur qurulmuşdu: ”İlk növbədə Naxçıvanın muxtar hüquqlu dövlət statusu ləğv olunmalıdır. Çünki Azərbaycan Respublikasının konstitusiyasının 17-ci maddəsinə görə, biz unitar dövlətik və unitar dövlətin daxilində hansısa federal quruluş olmamalıdır. Bu səbəblə də Naxçıvanın hüquqi statusu Azərbaycan konstitusiyasına uyğunlaşdırılmalıdır. Proses isə cənab Prezidentdən və Azərbaycan xalqından asılıdır. Yəni oradakı xüsusi nümayəndə heç bir şey edə bilməz”.

H.Oğuz bildirib ki, yəqin biz yaxın günlərdə Naxçıvan Ali Məclisinin də özünü buraxdığının şahidi olacağıq: ”Çünki oradakı deputatların hamısı cinayətkar insanlardır. Vasif Talıbov onlara toxunulmazlıq statusu vermək üçün mandatlaşdırmışdı. Yəni Azərbaycan hüquq-mühafizə orqanları həmin dırnaqarası deputatları cəzalandıra



bilməsin deyə vəzifəyə gətirmişdi. Onlar Naxçıvanı talayanlar, büdcədən milyardlarla dollar oğurlayan korrupsionerlərdir. Xüsusilə onlardan ikisinin üzərində dayanmaq istəyərdim. Biri Seymur Talıbovdur. Digəri isə ”Cahan Holding”in rəhbəri Vüqar Abbasovdur. Hər iki şəxs 2020-ci ildəki seçkilərdə Vasif Talıbov tərəfindən təyin olunublar. Bu təyinatdakı başlıca məqsəd həmin şəxslər üzərində ”toxunulmazlıq zirehi” yaratmaq idi. Toxunulmazlıq statusunun arxasında gizlənərək Naxçıvanı talayan 45 deputat cinayət məsuliyyətinə cəlb olunmalıdır”.

Baş yazar vurğulayıb ki, Naxçıvanda olan Nazirlər Kabineti ləğv edilməlidir: ”Orada heç Azərbaycanda belə olmayan nazirliklər mövcuddur. Çünki köhnə rejimlə idarə olunur. Kabineti ləğv etməyə isə cənab prezidentin səlahiyyəti var. O, icra orqanlarını ləğv edib, yeni struktur yaratmaq hüququna malikdir. Hətta bu istiqamətdə müəyyən addımlar da atılıb.

Dövlət başçısı Naxçıvan DTX-i və DGK-i ləğv edərək, orada Azərbaycan DTX və DGK-nin Naxçıvan bürosunu yaradıb. Eyni islahatlar digər sahələrdə, xüsusən güc strukturlarında da həyata keçirilməlidir. Oradakı DİN və Kərəm Mustafayevin əlində cəmləşən əlahiddə ümumqoşunun statusu alınmalıdır. Əlahiddə ümumqoşun ləğv edildikdən sonra 5-ci korpus təsis edilməlidir. Əgər bütün bunlar olmasa, orada vəzifəyə gətirilən adam yenidən ”xana” çevrilə bilər.

Ümumiyyətlə, Naxçıvan Azərbaycanın iqtisadi rayonu elan olunaraq, bizim bir regionumuza çevrilməlidir”.

**Nihat Müzəffər**

# Paşinyan Azərbaycanın "qırmızı xətt"ini keçir

## Ermənistanın şərtləri altında heç bir sülh müqaviləsindən söhbət gedə bilməz



**Rusiyanın paytaxtı Moskvada Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovla rusiyalı həmkarı Sergey Lavrov arasında görüş baş tutub. Bu barədə Rusiya Xarici İşlər Nazirliyi məlumat yayıb. Görüşdə ikitərəfli və regional məsələlərin müzakirə olunub. Qeyd edək ki, bu, Azərbaycan və Rusiya xarici işlər nazirləri arasında cari ayda ikinci görüşdü.**

Görüşün gizlinlərini ”Şərq”ə şərh edən tanınmış jurnalist, siyasi şərhçi Fuad Abbasov bildirib ki, Ermənistan hakimiyyətinin başlıca məqsədi erməni ictimaiyyətinin tələbi olan qondarma ”Artsax” problemini həll etməkdir: ”Onlar ”Artsax”a status qazandırmaq istəyirlər. Paşinyan isə daha çox hakimiyyətdə qalmaq üçün məsələni uzatmağa çalışır. Bu, Azərbaycan tərəfinin ”qırmızı xətt”idir. Biz dəfələrlə bildirmişik ki, ”qırmızı xətt”imizi keçməmək üçün qondarma rejimə hansısa statusun verilməsindən söz gedə bilməz.

Rəsmi İrəvan bunun üçün gah Rusiyanı, gah da Fransanı görüşlərə cəlb edir. Amma bu yalnız məsələnin uzanmasına gətirib çıxarır və heç bir nəticəsi yoxdur”.

Analitik qeyd edib ki, Bayramov-Lavrov görüşündə başlıca müzakirə mövzusunun yenə də erməni tərəfinin tələbləri olacağını düşünür:

”Çünki rusiyalı nazir ”Ermənistan Kremlin başlıca müttəfiqi olduğu üçün rəsmi Moskva İrəvanın mövqeyindən çıxış edəcək” sözlərini dilə gətirmişdi. Ermənistanın əsas mövqeyi isə Qarabağdakı qondarma rejimə ”status” qazandırmaqdır. Bu isə bizim tərəfimizdən qəbul ediləcək bir məsələ deyil.

Onun üçün də bu şərtlər altında heç bir sülh müqaviləsindən söhbət gedə bilməz”.

**Nihat Müzəffər**

# Təcrübəli, savadlı İT mütəxəssislərimiz maaşlarından narazıdırlar

## **Elvin Abbasov:** ”Əgər biz rəqəmsal sahədə dünya tendensiyasına qoşulmaq istəyiriksə, öncə əlimizdəki təcrübəli mütəxəssislərimizi razı salmalıyıq”



**“Əcnəbilərin və ya vətəndaşlığı olmayanların yerli İT şirkətlərdə işləməsi üçün iş icazəsi lazım olmayacaq”.**

Bu məqam Miqrasiya Məcəlləsinə təklif edilən dəyişiklikdə öz əksini tapıb. ”Sosial sığorta haqqında” qanuna təklif edilən dəyişikliklə isə əcnəbilər və ya vətəndaşlığı olmayanlar Azərbaycanda məcburi dövlət sosial sığorta haqqını ödəməkdən azad ediləcəklər.

Nəzərdə tutulan dəyişikliklərin Milli Məclisdə müzakirəsi zamanı qeyd olunub ki, hər il ölkədə 3 min 500 İKT mütəxəssisi hazırlansa da, Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları (İKT) üzrə 20 minə yaxın mütəxəssisə ehtiyac var. Azərbaycanın toplam daxili məhsulunda İKT sektorunun payı cəmi 1.8 faizdir.

Xarici İT mütəxəssislərin Azərbaycana dəvət ediləcəyi ilə bağlı iddialara münasibət bildirən İKT mütəxəssisi Elvin Abbasov deyib ki, Azərbaycanda evində oturub xarici şirkətlərdən 10 min dollara qədər məvacib qazanan kvalifikasiyalı İT mütəxəssislər var: ”Biz yerli İT mütəxəssislərimizi itirməmək, eləcə də kodifikasiya mühəndislərimizi və texnoloqlarımızı geri qaytarmaq istiqamətində lazımi addımlar atmalıyıq.

Ölkəmizdə bir çox yerli ekspertlər beynəlxalq səviyyədə tanınan xarici şirkətlər - ”Google”, ”Oracle” və ”Microsoft”da fəaliyyət göstərirlər.

İstər özəl sektorda, istərsə də dövlət sektorlarında çalışan kifayət qədər təcrübəli və savadlı İT mütəxəssislərimiz aldıqları məvaciblər və maaşlardan narazıdırlar. Özəl sektoru kənara qoyaq, dövlət qurumlarında belə İT mütəxəssislərimizin maaşlarına baxış bucağı dəyişmir. Onların aldıqları maaş ilə adi peşə maaşı arasındakı fərq o qədər də seçilmir. Əgər biz rəqəmsal sahədə dünya tendensiyasına qoşulmaq istəyiriksə, öncə əlimizdəki təcrübəli mütəxəssislərimizi razı salmalıyıq. Atalar misalı var, ”Əvvəl evin içi, sonra çölü”.

**Şəymən**



# Mətbuat Şurası professor Elçin Əhmədovu təltif edib

Beynəlxalq münasibətlər üzrə professor, siyasi elmlər doktoru Elçin Əhmədov Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinin zəngin tarixi irsinin təbliğində, Qarabağla bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasında xidmətlərinə, çoxsaylı araşdırma yazılarına görə və ”Şuşa İli” münasibətilə Azərbaycan Mətbuat Şurası tərəfindən təltif edilib. MŞ sədri Rəşad Məcid ona Şuranın diplomunu təqdim edib.

# "Elmira Süleymanovanın yaşı rol oynamayıb"

## Sahib Məmmədov: ”BMT kimi təşkilatda yaşa və cinsə görə diskriminasiyalar qadağandır”



**Milli Məclisin dünən keçirilən plenar iclasında Ali Məhkəmə və bir sıra digər məhkəmlərin hakimlərinin təyinatı məsələsi müzakirəyə çıxarılıb.**

Müzakirələrdə çıxış edən deputatlar Qüdrət Həsənquliyev və Tahir Kərimli İnsan Hüquqları üzrə sabiq müvəkkil Elmira Süleymanova ilə bağlı tənqidi fikirlər səsləndiriblər. Qüdrət Həsənquliyev Elmira Süleymanovanın əvvəlcədən təsbit olunan müddətdən daha artıq fəaliyyət göstərməsinin Azərbaycanın beynəlxalq reytinqini aşağı saldığını bildirib.

Tahir Kərimli də BAXCP sədrinin fikirləri ilə razılaşıb: ”Həqiqətən BMT-nin İnsan hüquqları komissiyası Elmira Süleymanovanın yaşının çoxluğuna görə Azərbaycan Ombudsman İnstitutunun reytinqini A-dan B-yə salıb”.

Spiker Sahibə Qafarova isə Elmira Süleymanovanın fəaliyyətinin hər zaman Azərbaycan üçün çox böyük əhəmiyyətə malik olduğunu vurğulayıb.

**Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının sədri, hüquq müdafiəçisi Sahib Məmmədov isə ”Şərq” ə açıqlamasında BMT-nin Ombudsmanın statusunun ”A”dan ”B”-yə salmasının konkret səbəblərini açıqlayıb:**

”Səhv etmirəmsə, 2016-cı il idi. Ermənilər Azərbaycana qarşı üç istiqamətdə qlobal kampaniya aparırdı. Bu kampaniyalar Azərbaycanın Mədən Sənayesində Şəffaflıq Təşəbbüsündə (MSŞT) fəaliyyətinin dayandırılması, ”Açıq hökumət”dən çıxarılması və bir də Azərbaycan Ombudsmanının BMT-dəki ”A” statusunun ləğv edilməsi ilə bağlı idi. Hətta bununla bağlı azərbaycanlı ”hüquq müdafiəçi”lərinin də iştirakı ilə Varşavada, Praqada toplantılar keçirilib xüsusi tapşırıqlar verilmişdi.

Nəticədə Azərbaycan Ombudsmanının BMT-dəki ”A” statusunun ləğv edilərək ”B” statusuna keçirilməsinə qərar verildi. Sözsüz ki, burada bir sıra daxili amillər də vardı. Azərbaycanda fəaliyyət göstərən Qeyri Hökumət Təşkilatlarının fəaliyyətinə dair məhdudlaşdırıcı qanunların qəbul olunması obyektiv səbəblərdən biri idi. Bu məsələ birbaşa Ombudsmanın fəaliyyətinə aid olmasa da, vətəndaş cəmiyyətlərinin fəaliyyəti ilə bağlı məhdudlaşdırıcı qanunun qəbulu BMT-nin əlində bir əsas idi.

Amma bu məsələdə Elmira xanımın yaşının çoxluğu rol oynamayıb. Bu cür təşkilatlarda yaşa və cinsə görə diskriminasiyalar qadağandır. Yaşı çox olsa da Elmira xanım aktiv fəaliyyətdə idi. Ekspert qrupunun üvzü olduğum üçün xarici səfərlərdə də şahidi olmuşam, səlahiyyətinin sonuna kimi aktiv olub”.

**Şəymən**

# "Qoca vaxtımda yalvarıram"

## Tahir Kərimli: ”5000 autizm xəstəsi cəmiyyətə qaytarılmalıdır”



**Milli Məclisin iclasında deputat Tahir Kərimli Autizm Defektoloji Yardım Mərkəzinə ayrılan torpaq sahəsində tikintiyə icazə verilməməsindən şikayətlənib.**

Deputat bildirib ki, Azərbaycanda Autizm Defektoloji və Psixoloji Yardım Mərkəzi İctimai Birliyi var və 1000-dən yuxarı autizm xəstəsi burada qeydiyyatdadır. Ancaq mərkəzə bina verilmir: ”Autizm Defektoloji və Psixoloji Yardım Mərkəzi bütün orqanlara müraciət edib. 43 autizm xəstəsinin valideyni mənə 500 adamın adından müraciət edib. Azərbaycanda ümumilikdə 5000 autizm xəstəsi var. Bu xəstələrə baxılmalı, onlar cəmiyyətə qayıtmalıdır. Yeni Günəşlidə ayrılan torpaq sahəsi restoran üçün nəzərdə tutulsaydı, tikintiyə o dəqiqə icazə verilərdi, bu uşaqlar üçün yer ayrılıb, amma tikintiyə icazə verilmir. Bu uşaqlar evdə kəndirə bağlanıb saxlanılır, onlar mənim gözümün qabağından getmir. Analar hayqırır, göz yaşı tökürlər. Parlament rəhbərliyindən xahiş edirəm ki, bu məsələnin üstündə dursun. Tikintiyə niyə icazə verilmir? Mən qoca vaxtımda yalvarıram, bu adamlara yazığınız gəlsin”.

*Sədr Sahibə Qafarova deputatın çıxışına reaksiya verib: ”Tahir müəllim, əsəbiləşməyin. Bütün sənədləri yığmısınız, sənədlərlə müraciət edin”.*

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Fikir, söz azadlığı, plüralizmin inkişaf etdirilməsi



# “Media mənsubları aksiya yerində işin öhdəsindən gəlir”

## **Orxan Amaşov:** “Hazırda bizim jurnalistlər aktivdir, xarici mediaya müsahibələr verir, operativ informasiya ilə təmin edirlər”

**Azərbaycan ekoloqları, qeyri-hökumət təşkilatları nümayəndələri, ictimai fəalların Qarabağda Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi zonada, Şuşa-Laçın yolunda etiraz aksiyası günlərdir davam edir.** Aksiya iştirakçıları Xankəndiyə toplaşmış erməni separatçılarının, cinayətkar rejim üzvlərinin ölkəmizin təbii sərvətlərini talamasına, ekoloji fəlakət törətmələrinə, “humanitar yardım” adı altında qanunsuz silah-sursatın Azərbaycan ərazisinə daşınmasına və Ermənistan hakimiyyəti tərəfindən separatçıların silahlandırılmasına etiraz edir, Şuşa-Laçın yolunda qanuna uyğun olaraq gömrük postunun qurulması və avtomobillərin, yüklərin yoxlandıqdan sonra Xankəndiyə buraxılmasını tələb edirlər. Azərbaycan vətəndaşlarının haqlı tələbləri dünyada böyük əks-səda doğurub. Bizə dost ölkələr, haqqın, ədalətin yanında olanlar aksiyanı dəstəkləyir, tələblərin qanuni olduğunu bildirirlər. Lakin ölkəmizə qeyri-dost münasibəti bəsləyənlər, şəxsi mənafeləri üçün separatçılara havadarlıq edənlər aksiyanı “humanitar blokada” adlandırıb dünya ictimaiyyətini çaşdırmağa səy göstərirlər. Belə şəraitdə medianın üzərinə həqiqətləri dünyaya çatdırmaq kimi böyük vəzifə və məsuliyyət düşür. Media bunun öhdəsindən necə gəlir?

Qeyd edək ki, Azərbaycan media nümayəndələri ilk gündən aksiyanın işıqlandırılması, informasiyanın ilk mənbədən çatdırılması məqsədilə hadisə yerinə ezam olunublar. İstər çap mediası, istər onlayn media və televiziyalar, ölkədə fəaliyyət göstərən xəbər daşıyıcıları ilk gündən etibarən aksiya barədə məlumatların vaxtında ictimaiyyətə çatdırılması üçün səfərbər olub. Televiziya, onlayn media subyektlərinin əməkdaşları aksiya iştirakçıları ilə eyni sırada dayanaraq məlumatların operativliyini təmin ediblər. Məsələn, “Trend” İA-nin Şuşaya ezam olunan əməkdaşının verdiyi xəbərdə bildiirlir ki, etirazları davam etdirən aksiya iştirakçıları Azərbaycanın Dövlət Himnini oxuyur, “Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!”, “Azərbaycan vahiddir, sərvətinə sahibdir!”, “Ekoloji cinayətə son!”, “Stop ekoterror!” kimi şüarlar səsləndirirlər. Ekofəallar, ictimaiyyət nümayəndələrinin Azərbaycan ərazisində müvəqqəti yerləşdirilmiş sülhməramlıların postu yaxınlığında etiraz aksiyası keçirirlər. Aksiyada etiraz edənlərin əsas tələbləri Rusiya sülhməramlılarının komandanı Andrey Volkovun gəlməsi, azərbaycanlı mütəxəssislərin monitorinq aparılması üçün lazımi şərait yaradılması, ermənilərin Azərbaycan torpaqlarında ekoloji terrora son qoyulması, Ermənistanla sərhəddə Laçın istiqamətində ayrıca sərhəd və gömrük nəzarəti postlarının yaradılması, Azərbaycan ərazisinə qanunsuz silah daşınmasının qarşısının alınmasıdır. “Report”un hadisə yerində olan əməkdaşı isə xəbər verir ki, Şuşadan keçən Xankəndi-Laçın yolunda Rusiya sülhməramlılarına məxsus təminat avtomobillərinin hərəkət etməsinə növbəti dəfə şərait yaradılıb. Xankəndidən Laçın istiqamətinə Rusiya sülhməramlılarına məxsus 5 ədəd təminat avtomobili keçib. Bu, bir daha onu sübut edir ki, aksiyanın keçirilməsinə baxmayaraq, yol humanitar məqsədlər üçün açıqdır. Aksiyanın keçirilməsi ölkəmiz, dövlətçiliyimiz üçün, eləcə də Xankəndinin erməni əhalisinin təhlükəsizliyi baxımından nə qədər önəmlidirsə, aksiya barədə beynəlxalq ictimaiyyətin, dünya dövlətlərinin məlumatlandırılması, erməni yalanlarının ifşa edilməsi də bir o qədər vacibdir. Bu isə məhz medianın üzərinə düşən vəzifədir.

Siyasi şərhçi, hüquqşünas Orxan Amaşov “Şərq”ə açıqlamasında hazırda aksiyanın keçirildiyi ərazidə olduğunu bildirdi və mövcud durumu izah etdi:

- Aksiyanın keçirildiyi ərazidə 3 gün oldum, hadisələri müşahidə etdim, indi də buradayam. Deyə bilərəm ki, əvvəlki günlərlə müqayisədə infrastruktur xeyli yaxşılaşıb, təkmilləşib. Təbii ki, ilk günlərdən bunu təmin etmək bir qədər çətin idi, lakin günlər keçdikcə çatışmazlıqlar aradan qaldırıldı. Media mənsubları üçün də ayrıca konteyner təşkil edilib və davamlı fəaliyyətləri üçün lazımi şərait yaradılıb. Məlumdur ki, hazırda bir neçə istiqamətdə mübarizə gedir. Həm diplomatik, həm ictimai müstəvidə, həmçinin informasiya müstəvisində. Yerli media mənsubları bu işin öhdəsindən gəlir. Sayları az deyil. Lakin hesab edirəm ki, media mənsublarının sayını daha da artırmaq lazımdır. Bu, Azərbaycanla bağlı, Qarabağ, Xankəndi, Şuşa-Laçın yolu haqqında erməni yalanlarının daha geniş ifşasına kömək edər, mövqelərimizi gücləndirər. Xarici dil bilən media mənsublarının sayını da artırmalıyıq. Hazırda bizim media nümayəndələrimiz aktivdir, xarici mediaya müsahibələr verir, operativ informasiya ilə təmin edirlər. Qardaş Türkiyənin telekanallarında - TRT, “Haber Global”da aksiya barədə geniş məlumatlar verilib, videogörüntülər yayımlanıb. Bu əməkdaşlıq genişləndirilməli və digər ölkələrin media subyektlərini də əhatə etməlidir. Medianın imkanları genişdir. Məhz medianın sayəsində Şuşa-Laçın yolundakı aksiyanın dinc məqsəd daşıdığı, Xankəndidəki erməni əsilli əhaliyə qarşı heç bir humanitar blokada olmadığı, humanitar yüklərin daşınmasına, dinc sakinlərin sərbəst hərəkətinə heç bir maneə yaradılmadığı əyani şəkildə sübuta yetir. Media subyektlərinin hazırladıqları süjetlər, verdiyi xəbərlər, yayımladıqları foto-videogörüntülər Şuşa-Laçın yolu ilə hərəkət edən yük avtomobillərinin və sakinlərin sərbəst gediş-gəlişi əks olunur. Bunları görən hansı dövlət, yaxud beynəlxalq təşkilat Azərbaycan dövlətini “humanitar fəlakətdə” günahlandıra bilər?

> “Məhz medianın sayəsində Şuşa-Laçın yolundakı aksiyanın dinc məqsəd daşıdığı, Xankəndidəki erməni əsilli əhaliyə qarşı heç bir humanitar blokada olmadığı, humanitar yüklərin daşınmasına, dinc sakinlərin sərbəst hərəkətinə heç bir maneə yaradılmadığı əyani şəkildə sübuta yetir”

**O.Amaşov qeyd etdi ki, aksiya iştirakçılarının qarşıya qoyulan məqsədə nail olunmayınca, dirənişi davam etdirəcəyinə şübhə yoxdur:**

- Buradakı insanlarımız, ekoloqlar, ictimaiyyət nümayəndələri, fəalllar Yeni İl bayramını Şuşa-Laçın yolunda keçirəcəklərini ifadə edirlər və bildirirlər ki, məqsədə nail olunmadan, təbii sərvətlərimizin separatçılar tərəfindən talanına son qoyulmadan geri dönməyəcəklər. Hətta Dünya Azərbaycanlılarının Həmrəylik Gününü burada bayram edəcək, yeni ili də burada qarşılayacaqlar. Bunu nəzərə alaraq, hesab edirəm ki, aksiyaya daha çox resurslar cəlb edilməlidir. İnformasiya təminatını isə bir an belə dayandırmaq, axsatmaq olmaz. Aksiyanın hədəfə çatması üçün bu, çox önəmlidir.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Bazarda sağlam rəqabət mühiti yoxdur

## Ona görə hər bayramqabağı bahalaşma müşahidə olunur

**Biləsuvar və Cəlilabad rayonlarında balıq bahalaşıb. “Report”un Muğan bürosunun əməkdaşı balıq satışının həyata keçirildiyi ərazilərdə olub, qiymətlərlə maraqlanıb. Müşahidələr zamanı məlum olub ki, balığın qiymətində 20-30 faizə yaxın artım var. Alıcılar da qiymətlərin baha olmasından şikayətləniblər.**

Onların sözlərinə görə, əvvəllər çay balığının kiloqramı 8-10 manata satılırdı. Amma indi bu, alıcılara 11-12 manata təklif olunur. Sakinlər deyirlər ki, həmişə bayram süfrəsində çəki balığına da üstünlük verilib, amma hazırda bu balıq növünü tapmaq əsl müşkülə çevrilib: “Bu balığa tələbat çox olduğu üçün qiyməti də bahadır. Bununla yanaşı, bazarlarda satışa çıxarılan dəniz məhsulları arasında çəki balığına əvvəlki kimi çox rast gəlinmir”.

Bundan əlavə, müşahidələr zamanı məlum olub ki, süni göllərdə yetişdirilən balıqların qiyməti də bahalaşıb. Bu balıqların satış qiyməti növündən asılı olaraq 6-8 manat arasında dəyişir.

Satıcılar isə söyləyiblər ki, hazırda bazarda müşahidə olunan qiymət artımı çay balıqlarının tutulmasının çətin olması ilə əlaqədardır. Onlar həmçinin dəniz məhsullarının qiymətindəki artıma qarşıdan gələn Yeni il bayramının da təsir etdiyini bildiriblər.

Satıcılar düşünürlər ki, qiymətlər bayramqabağı bir qədər də qalxa bilər: “Balığın sayı az olduğu üçün qiymətlər də təbii olaraq artır. Bununla yanaşı göl balıqlarına verilən yemin də qiyməti qalxıb və bu da balıqların qiymətində artıma gətirib çıxarıb”.

**Qiymət artımının səbəblərini “Şərq”ə dəyərləndirən iqtisadçı Fuad İbrahimov vurğulayıb ki, bayram öncəsi qiymətlərin bahalaşması hər zaman müşahidə olunur:** “Çünki tələbat artdıqca qiymətlər süni şəkildə bahalaşır. O cümlədən Azərbaycanda da bu proses hər zaman gedir. Ümumiyyətlə, birinci pandemiyadan sonra hökumətlər çətinlikləri aradan qaldırmaq üçün fiskal siyasət yürütdülər. Bu isə dünyanı inflyasiyanın bürüməsinə gətirib çıxardı.

Ona görə də 2021-ci il dünya iqtisadiyyatında inflyasiya ili kimi yadda qaldı. Digər tərəfdən özümüz “inflyasiyanı istehsal edirik”. Məsələ yanacağın bahalaşması, kommunal xərclərin artması və s. kimi proseslər qiymətlərin bahalaşmasına şərait yaradır.

Gedən inflyasiya ilə paralel, işbazların bayramdan istifadə edərək süni qiymət artırması istehlakçıların xərclərini çoxaldır. Bunun qarşısını almaq üçün ilk növbədə sağlam rəqabət mühiti formalaşmalıdır. Rəqabət mühitinin yaranması üçün ölkəmizin konstitusiyasına rəqabət məcəlləsi əlavə edilməlidir.

Bu məsələ həll edilsə, bazar özü qiymətəmələgəlmə prosesini tənzimləyəcək”.

**Nihat Müzəffər**

# Azərbaycana böyük valyuta qazandıra bilər

## Türkiyə ilə ortaq turizm marşrutlarının yaradılması effektiv olacaq

**Azərbaycan-Türkiyə Turizm üzrə Birgə Komissiyasının 2-ci iclasında ikitərəfli turizm əlaqələrinin mövcud vəziyyəti, turizm idarəetməsi, tənzimlənməsi, təşviqi, təhsili və təlimi, marketinq, kommunikasiya və turizm məhsulları, növbəti dövr üçün birgə Fəaliyyət Proqramının hazırlanması və digər məsələlər müzakirə olunub.**



Komissiya iclası Dövlət Turizm Agentliyinin sədrinin müavini Azadə Hüseynova və Türkiyə mədəniyyət və turizm nazirinin müavini Nadir Alpaslanın həmsədrliyi ilə keçirilib. İclasda çıxış edən Azadə Hüseynova ikitərəfli turizm əlaqələrinin cari vəziyyətindən söz açaraq, gəlmə və getmə turizmi sahəsində statistik göstəricilər və fəaliyyət planı üzrə görülmüş işlər barəsində məlumat verib.

O qeyd edib ki, cari ilin yanvar-noyabr ayları ərzində Azərbaycana 283 493 Türkiyə vətəndaşı səfər edib və bu rəqəm ötən ilin eyni dövrü ilə müqayisədə 60 faiz artım hesab olunur.

A.Hüseynova növbəti dövr üçün birgə Fəaliyyət Proqramının hazırlanmasının əhəmiyyətinə toxunaraq bu proqramda turizm üzrə ixtisaslaşmış assosiasiyalar arasında əməkdaşlıq imkanlarının genişləndirilməsinə yer verilməsinin iki ölkə arasında turizm əlaqələrinə öz töhfəsini verəcəyini bildirib.

Türkiyə mədəniyyət və turizm nazirinin müavini Nadir Alpaslan öz növbəsində iki ölkə arasında bütün sahələrdə uğurlu əməkdaşlıq münasibətlərinin formalaşdığını qeyd edərək, turizm sahəsində əlaqələrin inkişaf etdirilməsi üzrə böyük imkanların olduğunu vurğulayıb.

O, çıxışında bu istiqamətdə təcrübə mübadiləsinin, qarşılıqlı fəaliyyətin və birgə təbliğat işlərinin önəminə diqqət çəkib.

Müzakirələr zamanı qeyd olunub ki, Azərbaycan Turizm və Menecment Universiteti ilə Türkiyənin Sakarya Universiteti və Eskişehir Osmanqazi Universiteti arasında ikili diplom proqramının, həmçinin ixtisasartırma və turizm peşələri ilə bağlı təlim proqramlarının təşkil edilməsi turizm təhsili istiqamətində əməkdaşlığa müsbət təsirini göstərəcək.

İclas çərçivəsində keyfiyyətli turizmin təşkili ilə əlaqədar standartlaşdırma və sertifikasiya, turizm və istirahət komplekslərinin təşviqi məqsədilə əməkdaşlıq imkanlarının araşdırılması, turizm və rekreasiya zonalarının və infrastruktur layihələrin yaradılması istiqamətində təcrübə mübadiləsinin aparılması, işğaldan azad edilmiş ərazilərdə investisiya layihələri kimi mövzulara toxunulub.

Çıxışlarda həmçinin beynəlxalq platformalarda birgə təqdimatların keçirilməsi və ortaq turizm marşrutlarının yaradılması məsələlərindən bəhs olunub.

**Turizm üzrə ekspert Elçin Əliyev Türkiyə ilə Azərbaycan arasında ortaq turizm marşrutlarının yaradılması istiqamətindəki danışıqları müsbət qiymətləndirib.**

Türkiyənin böyük turizm bazarı olduğunu vurğulayan ekspert deyib ki, onsuz da Azərbaycandan Türkiyəyə çoxlu sayda turistlər gedir. Türkiyəli turistlərin ölkəmizə cəlb edilməsi baxımından bu cür layihələrin həyata keçirilməsini vacib hesab edir: “Türkiyədən nə qədər çox turist Azərbaycana gəlsə, ölkəmizin iqtisadiyyatına daha çox gəlir qazandırar. Qardaş ölkədən Azərbaycana daha çox turist gətirmək üçün onları Qalaaltı, Naftalan, Duzdağ kimi kurort mərkəzlərinə, yəni Türkiyədə olmayan məkanlara cəlb etməliyik”. Azərbaycanla Türkiyə arasında ortaq turizm əlaqələrini inkişaf etdirmək üçün münbit şərait olduğunu vurğulayan ekspertə görə, gəlmə turizmi turizm sektorunda çox önəmlidir. Bu turizm Azərbaycana çox böyük valyuta qazandıra bilər: “Həmçinin turizm inkişaf etdikcə, ölkədə yeni iş yerlərinin də sayı artacaq. Əgər qarşılıqlı layihələrdə bu amillər diqqətə alınarsa, bizim ölkənin də mənafeyinə daha çox uyğun olar. Bizim yeni mineral mənbələrimiz var. Bu baxımdan yeni kurort məkanları aşkar oluna, hotellər tikilə bilər. Bu həm ölkəyə turistlərin cəlbi, ölkənin tanıdılması, həm iqtisadiyyatın inkişafı, həm də əhalinin məşğulluğunun təmin olunmasıdır”.

**Şəymən**

# Topuq testi çox vacibdir

## Uşaqlarda irsi xəstəlikləri vaxtında aşkarlayanda müalicəsi asan olur



**Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyinin (TƏBİB) icraçı direktorunun müavini Araz Nəsirovun sözlərinə görə, bu ilin may ayından etibarən, yenidoğulmuşlar arasında anadangəlmə və irsi xəstəliklərin erkən aşkarlanması məqsədilə 6400-ə yaxın uşaq testlərə cəlb olunub.**

O bildirib ki, testlər TƏBİB-in tabeliyindəki tibb müəssisələrində götürülüb: "Kistik Fibroz xəstəliyinin erkən aşkarlanması məqsədilə uşaqlardan tər testi nümunələri götürülüb. Bu müayinə nəticəsində uşaqlar arasında əlillik hallarının qarşısını almaq mümkündür".

Direktor müavini vurğulayıb ki, ötən ilin aprel ayından bu günə qədər uşaqlar arasında Xidmətlər Zərfi çərçivəsində 404 tər testi aparılıb.

**Pediatr Şəlalə Həsənova "Şərq"ə açıqlamasında tibdə 6 mindən çox irsi xəstəliyin məlum olduğunu deyib. Onun sözlərinə görə, vaxtında aparılan diaqnostika və müalicə gələcəkdə xəstəliyin qarşısını almağa imkan verir.** Uşaq normal göstəricilərlə doğulur, bir yaşına çatdıqda mərkəzi sinir sistemində pozuntular və fiziki inkişafında ləngimələr müşahidə olunur. Onda da gec olur: "İrsi xəstəliklərin bir çoxunu doğuşdan əvvəl təyin etmək mümkün olmasa da, yenidoğulmuşların ilk günlərində məhz "topuq tarama testi" ilə körpənin irsi xəstəlikləri əvvəlcədən təyin olunur və lazımi müalicələr aparılır.

TƏBİB-in tabeliyindəki tibb müəssisələrində yenidoğulmuşlardan topuq testi, uşaqlardan isə tər testi nümunələri götürülür. Topuq testi irsi xəstəliklərin erkən aşkarlanması üçün vacibdir. Yenidoğulmuşlarda edilən testlərdən ən əsası və əhəmiyyətlisi olan topuq testi uşaq doğulduqdan və qidalandıqdan 48-72 saat sonra həyatının ilk 10 günü ərzində edilməlidir. Dünyanının bir çox inkişaf etmiş ölkələrində bu test peyvəndə qədər əhəmiyyətli olaraq hər bir yeni doğulmuş körpəyə edilir.

Bəzi anadangəlmə xəstəliklər uşaq doğulduqdan sonra ilk günlərdə heç bir əlamətlərlə özünü büruzə vermir və ya kliniki simptomları spesifik olmur. Topuq testinin tətbiqi ilə bu xəstəlikləri erkən mərhələdə aşkarlamaq, xəstələri isə vaxtında müalicəyə cəlb etmək mümkün olur.

Topuq testi yenidoğulmuşların topuq nahiyəsindən qan nümunəsi götürülməklə həyata keçirilir.

Qan nümunəsi vaxtında doğulan və qidalanmağa başlayan uşaqlardan doğuşdan 2 gün sonra, vaxtından tez doğulan uşaqlardan isə 1 həftə sonra götürülür.

Qan nümunələrində fenilketonuriya (amin turşularının metabolizminin pozulması), qalaktozemiya (bədəndə artıq qalaktoza şəkərinin yığılması), kistik fibroz (metabolizm prosesinin pozulması), adrenogenetal sindromu (böyrəküstü vəzilərin irsi xəstəliyi) və hipotireoz (qalxanabənzər vəzinin funksiyasının zəifləməsi) xəstəliklərinin izlərini axtarırlar. Topuq testinin diaqnostik əhəmiyyəti yoxdur. Test nəticəsində kistik fibroza şübhə varsa, ikinci mərhələdə "tər testi" ilə diaqnoz təsdiqlənir. Zamanında aşkarlanan metabalik pozğunluqlar gələcəkdə körpələrin zehni və fiziki problemlərinin həlli deməkdir".

Azərbaycanda əhalinin təxminən 8-10 faizinin talassemiya geninin daşıyıcısı olduğunu vurğulayan pediatr deyib ki, Beta-talassemiya geninin rastlanmasına görə ölkəmiz dünyada 4-5-ci yeri tutur. Qohum nikahı, nəsildə patoloji resessiv genin olması körpənin irsi xəstəlik daşıma riskini 30 dəfəyə qədər artırır. Çox yaxşı bir haldır ki, artıq nikaha daxil olduqda talassemiya daşıyıcılığı yoxlanır.

Tər testi ilə müəyyən olunan kistik fibroza gəldikdə isə Ş.Həsənovanın sözlərinə görə, qalıcı ağciyər infeksiyasına səbəb olan və zamanla nəfəsalma qabiliyyətini məhdudlaşdıran, həmçinin sinir sistemi və cinsiyyət orqanlarına əhəmiyyətli dərəcədə təsir edən, proqressiv, autozomal resessiv irsiyyət tipinə sahib olan genetik xəstəlikdir: " Oxşar simptomlara sahib bir sıra xəstəliklər vardır. Bunlara astma, çölyak xəstəliyi, sinüzit, bronxiolit, uşaq aspergilllozu və s. göstərmək olar. Ancaq kistik fibrozun əsas simptomları dərinin duzlu olması, davamlı, bəzən bəlğəmli öskürək, sətəlcəm və ya bronxit daxil olmaqla ağciyər infeksiyaları, nəfəs alma və ya nəfəs darlığı, yaxşı iştaha baxmayaraq, zəif inkişaf və ya kilo itkisi və s.-dir.

Bu xəstəliyə kistik fibroz transmembran əlaqəli tənzimləyici (cftr) genində olan mutasiyalar səbəb olur. Bu mutasiyalar ağciyər və mədəaltı vəzi daxil olmaqla, bir neçə orqanın xaricindəki duz və su mübadiləsini kontrol edən zülalın funksionallığını bloklayır və bu da duz tarazlığının pozulmasına və beləliklə, çox az duz və su mübadiləsinin olmasına və normadan daha qalın mukusun yaranmasına səbəb olur. Xüsusilə ağciyər və mədəaltı vəzdə toplanan mukus tıxaclar yaradır və ağciyərlərdə toplanan mukus bakteriyalar üçün yaxşı qidalı mühit yaradır və bu da nəticə olaraq ağciyər infeksiyalarına yol açır.

Xəstəlik autosomal resessiv ötürüldüyünə görə, xəstə olmayan ancaq defekt genləri daşıyan qadın və kişinin uşaqlarında 25 faiz ehtimalla ortaya çıxar. Defekt genin sadəcə 1 nüsxəsinə sahib insanlara daşıyıcı deyilir. Yəni bu xəstəlik qohum evliliklərində ortaya çıxma riski yüksək olan xəstəlikdir".

Həkimin sözlərinə görə, əksər hallarda insanların 75 faizində KF diaqnozu 2 yaşına qədər qoyulsa da, bəzilərinə yetkin yaşında diaqnoz qoyulur: "KF olan yeni doğulmuş körpələrdə uzunmüddətli neonatal sarılıq və ya erkən ağciyər infeksiyası ola bilər. KF-nin tam müalicəsi yoxdur, ancaq bir sıra müalicə metodları vardır ki, simptomların təsirini yüngülləşdirə bilər, ağırlaşmaları azalda bilər və həyat keyfiyyətini yaxşılaşdıra bilər. Hazırda bir sıra müalicə metodları inkişaf mərhələsindədir. KF simptomlarının tipi və şiddəti insandan insana böyük ölçüdə fərqlilik göstərə bilər. Ona görə də hər bir fərdə özünəməxsus müalicə planı tətbiq olunur. Ağciyər xəstəliyi kistik fibrozda ən sıx rast gəlinən ölüm səbəbidi".

**Şəymən**




## "Bakcell"dən nəqliyyat üçün ağıllı həllər

Bakcell şirkəti korporativ abunəçilərinə nəqliyyat vasitələri üçün ağıllı həllərdən istifadə etmək imkanı yaradır. "GPS+" adlanan bu yeni xidmət şirkət və təşkilatlara məxsus nəqliyyat vasitələrinin GPS izlənməsini təmin edir.

Xidmətə qoşulan korporativ abunəçilər nəqliyyat üçün nəzərdə tutulan ağıllı həllərdən istifadə etməklə onun yerləşdiyi yer, sürəti, yanacaq sərfiyyatı, işləmə rejimi və səyahət etdiyi məsafəyə 24 saat ərzində nəzarət edə biləcəklər.

Monitorinq korporativ avtomobillərə quraşdırılan GPS avadanlığı vasitəsilə həyata keçirilir.

Xidmət barədə ətraflı məlumat üçün https://business.bakcell.com/az/smart-solutions-for-transport səhifəsinə daxil olun.

Bakcell şirkəti müxtəlif sahələrdə fəaliyyət göstərən korporativ abunəçilərini üstün mobil rabitə xidmətləri və texnoloji həllərlə təmin edir.

2022-ci ildə Bakcell şəbəkəsi növbəti dəfə Ookla® tərəfindən "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" kimi tanınıb.

## Vahid Əliyev infarkt keçirdi

### Təcili açıq ürək əməliyyatı keçirilməlidir



**Gənc Tamaşaçılar Teatrının aktyoru, əməkdar artist Vahid Əliyevin səhhəti pisləşib.**

Bu barədə Qaynarinfo-ya teatrdan məlumat verilib.

Bildirilib ki, aktyor infarkt keçirib:

"Həkimlər aktyorun vəziyyətini ağır qiymətləndirib. Onlar deyir ki, təcili olaraq açıq ürək əməliyyatı keçirilməlidir".



## Göygöldə it döyüşdürənlər həbs edildi

**Göygöldə it döyüşdürən şəxslər saxlanılıb.**

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Gəncə regional qrupundan "Şərq"ə verilən məlumata görə, araşdırmalar nəticəsində məlum olub ki, Göygöl rayon Quşçu kənd sakini Abdulla Hüseynov və Çaykənd kənd sakini Elyaz Məhərrəmov qanunsuz olaraq özlərinə məxsus itləri döyüşdürüblər.

Həmin şəxslər saxlanılaraq polis şöbəsinə gətiriliblər və barələrində İnzibati Xətalar Məcəlləsinin müvafiq Maddəsi ilə protokol tərtib edilərək baxılması üçün məhkəməyə göndərilib. Məhkəmənin qərarı ilə saxlanılan şəxslər 25 sutka inzibati qaydada həbs edilib.

*Faktla bağlı araşdırmalar davam etdirilir.*

## "Ürəyi tab gətirmədi"

### Vəkil məhkəmə prosesindəki ölüm hadisəsindən danışdı



**"Hüquqlarını müdafiə etdiyim Qədimov Şəmil Əli oğlu məhkəmə prosesi zamanı vəfat etdi. Həyat çox etibarsızdı. Allah rəhmət eləsin".**

Bu yazını vəkil Adəm Məmmədov öz feysbuk hesabında paylaşıb.

Hadisə ilə bağlı "Şərq"ə açıqlama verən vəkil Adəm Məmmədov hüquqlarını müdafiə etdiyi Qədimov Əli Şamil oğlunun səhhətində problem olduğunu bildirib.

O qeyd edib ki, hadisə Bakı Ağır Cinayətlər Məhkəməsindəki iclas zamanı baş verib: "Çox gərgin proses idi və rəhmətlik ağır maddələr ilə ittiham olunurdu. Digər tərəfdən səhhətində də problemləri var idi. Bütün bunlar üst-üstə gəldiyi üçün ürəyi tab gətirmədi və dünyasını dəyişdi".

**Nihat Müzəffər**

## "Azəriqaz" hədəflərini açıqlayıb

### Tarif limitlərinin yenilənməsi gələn ilin 6 yanvar tarixinədək başa çatacaq

**SOCAR "Azəriqaz" İstehsal Birliyi mexaniki (sonradan ödənişli red.) sayğaclarda tarif limitlərinin yenilənməsinin gələn ilin 6 yanvar tarixinədək başa çatdırmağa planlaşdırır.**

Bunu İB-nin İctimaiyyətlə Əlaqələr şöbəsinin rəisi Eldəniz Vəliyev "Açıq qapı" aksiyasında çıxışı zamanı bildirib.

Onun sözlərinə görə, ölkə ərazisində istifadə olunan smart-qart tipli qaz sayğacların tarif limitinin yenilənməsi avtomatik olaraq baş tutacaq (2022-ci ilin dekabrın 31-dən 2023-cü ilin yanvarın 1-ə keçən gecə - red.). Hazırda Azərbaycanda smart-qart tipli qaz sayğaclarında istifadə edən abonentlərin sayı 1 mln. yaxıdır.




"Qalan 1,4 mln. yaxın abonentimizin, mexaniki, sonradan ödənişli sayğaclardan istifadə edən abonentlərinin limitlərinin yenilənməsi prosesi bir neçə gün vaxt alacaq", - Eldəniz Vəliyev qeyd edib.

O əlavə etdi ki, Nazirlr Kabinetinin müəyyən etdiyi qaydalarına əsasən, mexaniki sayğaclarda limitlərin yenilənməsi yanvar ayının 10-a qədər (tədricən - red.) təmin olunmalıdır: "Amma qarşımızda qoyduğumuz əsas hədəflərdən biri odur ki, limitlərin yenilənməsi prosesi yanvar ayının altısına qədər icra olunsun".

Qoyulan məqsədin yerinə yetirilməsinə mane edə biləcək amillərdə sırasında Eldəniz Vəliyev bayram günləri ilə əlaqədar abonentlərin evdə olmaması, turistik səfərlərdə olması və digər subyektiv səbəbləri sadaladı.

Xatırladaq ki, ötən il oktyabrın 16-da Tarif Şurasının iclasında təbii qaz üzrə topdansatış və pərakəndə satış qiymətlərinin tarif tənzimlənməsinə dair qərar qəbul edilib. Qərara əsasən, əhalinin illik istehlakının 1 200 kubmetrədək olan hissəsi üçün tariflər 10 qəpikdən 12 qəpiyə artırılıb. Əhali üçün 1 200-2 500 kubmetrədək və 2 500 kubmetrədən çox olan hissələr üçün tariflər müvafiq olaraq 20 və 25 qəpik olmaqla dəyişmədi və əvvəlki həddə saxlanılıb. Qeyri-əhali kateqoriyasından sənaye və kənd təsərrüfatı üzrə qazın tarifləri 20 qəpikdən 22 qəpiyə artırılıb.

## Restoran və dönərxanalara yararsız at və mal əti satan şəxs saxlanıldı

**Daxili İşlər Nazirliyi (DİN) Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi Qida Təhlükəsizliyi Agentliyi ilə birgə vətəndaşların ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində növbəti əməliyyat tədbiri həyata keçirib. Tədbir zamanı Biləsuvar rayonunda qidaya yararsız, ölü at və iri buynuzlu heyvan ətinin satışı ilə məşğul olan Zaur Rüstəmov saxlanılıb.**




Zaur Rüstəmov
Saxlanılan şəxs

DİN-dən "Şərq"ə bildirilib ki, araşdırma zamanı müəyyən edilib ki, həmin şəxs Biləsuvar və ətraf rayonlardan xəstə, artıq təsərrüfatda istifadə edilməyən, ölmüş atları ucuz qiymətə alaraq həyətyanı sahəsində toplayıb və kəsimi həyata keçirilib. Qidaya yararsız at ətinin sümükləri ayrılandan sonra mal əti adı ilə Zaur Rüstəmov tərəfindən Bakı şəhərində fəaliyyət göstərən müxtəlif restoran, dönərxana və ictimai iaşə obyektlərinə satılıb.

Baş İdarənin əməkdaşları və Qida Təhlükəsizliyi Agentliyinin mütəxəssisləri tərəfindən Zaur Rüstəmova məxsus fermaya və saxlama yerlərinə baxış keçirilərkən qidaya yararsız külli miqdarda mal və at əti aşkar olunaraq maddi sübut kimi götürülüb. Təyin olunmuş müvafiq ekspertizalarla aşkar olunmuş ətin qidaya tam yararsız və insan sağlamlığı üçün ciddi təhlükə mənbəyi olması təsdiq edilib.

Faktla bağlı araşdırmalar və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**

**Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir**

**Texniki heyət:**
**Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova**

**Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur**

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.**
**Lisenziya: 535**
**www.sherg.az**
**e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.**
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
**SWIFT BIK AII-BAZ2X h/h**
**AZ17AIIB38070019441100466111**
**Kod 200112 M/H**
**AZ37NABZ01350100000000001944**
**VÖEN 1300414651 İndeks: 0330**
**Tirajı: 1550 Sifariş: 3738**



## 1 milyon 500 min dollara satmaq istədilər

### 700 illik yaşı olan Tövrat əlyazması ələ keçirildi

**Türkiyənin Giresun bölgəsinin Bulancak rayonunda yaşı təxminən 700 il olduğu təxmin edilən Tövratın əlyazması müsadirə edilib.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, İl Jandarma Komandanlığı qrupları Bulancak rayonunda Tövrat əlyazmasını satmaq istəyən İ.M.P.-ni saxlayıb.

Şübhəlinin İlçe Jandarma Komandanlığında dindirilməsi zamanı onun İstanbuldan Bulancak rayonuna gətirdiyi Tövratı 1 milyon 500 min dollara satmaq istədiyi öyrənilib.

700 yaşı hesab edilən Tövratın əlyazmasının Giresun Muzey Müdirliyinə təhvil verildiyi və hadisə ilə bağlı araşdırmaların davam etdirildiyi bildirilib.

**Turan**

## 4 gündür axtarılırdı

### Yaşlı qadın donmuş vəziyyətdə tapılıb



**Sivasın Ulaş rayonunda 4 gündür axtarışda olan 75 yaşlı Fatma Fidan itdiyi zənn edilən yerdən təxminən 5 kilometr aralıda donmuş halda tapılıb.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, polis qrupları, Sivas Jandarma Komandirliyinə bağlı komandolar və vətəndaşlar tərəfindən çətin şəraitdə aparılan axtarış işləri nəticəsində yaşlı qadın dünən Karlıtepedə ölü tapılıb.

Fidanın rayondan uzaqlaşdığı üçün azaraq donub öldüyü təxmin edilir. Ölümün dəqiq səbəbini müəyyən etmək üçün araşdırmalara başlanılıb.

Fatma Fidan yoxa çıxmazdan əvvəl sonuncu dəfə rayon mərkəzindəki təhlükəsizlik kamerası tərəfindən görüntülənib.

Videoda qadının əlində əsa ilə yeridiyi görünür. Bu, Fidanın yoxa çıxmazdan əvvəl qeydə alınmış son görüntüləridir.

**Turan**




# Nuhun gəmisinin sirri araşdırılır

### 30-a yaxın qaya və torpaq nümunəsi İstanbula, universitetin laboratoriyasına gətirilib








**Türkiyənin Ağrı bölgəsində Nuhun gəmisi olduğu ehtimal edilən ərazidən götürülən nümunələr İstanbul Texniki Universiteti laboratoriyasına gətirilib. Nəticələrdən sonra ərazidə Nuhun gəmisinin izlərinin olub-olmaması müəyyən edilə bilər.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, müqəddəs kitablarda təsvir edilən tufanda adı keçən Nuhun gəmisi əsrlərdir axtarılır, onun Ağrı dağında olduğuna inanılır. İstanbul Texniki Universiteti (İTU) tərəfindən yaradılan araşdırma qrupu təxminən 2 ay əvvəl Nuhun gəmisinin xarabalıqları olduğu ehtimal edilən ərazidə işlərə başlayıb.

Valiliyin nəzarətində icazələrlə aparılan tədqiqat sahəsindən toplanan 30-a yaxın qaya və torpaq nümunəsi tədqiq edilmək üçün Ağrıdan İstanbula, universitetin laboratoriyasına gətirilib. Müxtəlif fənlər üzrə öyrənilən proseslə bağlı İTU-nun prorektoru və dağ-mədən fakültəsinin dekanı professor Mustafa Kumral və İTİ Geologiya mühəndisliyi şöbəsinin müdiri professor Emin Çiftçi açıqlamalar verib.

Təxminən 1 ay davam etməsi gözlənilən laboratoriya araşdırmalarından sonra Nuhun gəmisində izlərin olub olmadığı müəyyən edilə bilər.

Mustafa Kumral, "Məqsədimiz buradakı quruluşun ətrafdakı ümumi geoloji quruluşdan fərqli olub-olmadığını görməkdir. Bunu ortaya çıxarmaqdır. Makro və mikro müşahidələr aparılacaq. Bu ərazilər kimyəvi analizlərə məruz qalacaq. Bu kimyəvi analizlərdə o strukturun ümumi mineralogiya və bölgənin geologiyası öyrəniləcək və buranın Nuhun gəmisinə işarə edirmi sualına cavab tapacağıq", - deyə bildirib.

**Turan**

## Bakı toyu üçün 100 mindən çox pul aldı



**Bir neçə gün bundan əvvəl Bakıda toyda səhnə alan Azərbaycan əsilli məşhur qazax reper Jah Khalibin (Bəxtiyar Məmmədov) aldığı qonorar məlum olub.**

Olay xəbər verir ki, sənətçi paytaxt restoranlarının birində keçirilən dəbdəbəli gecədə çıxış üçün 60 min dollar (102 min manat) əldə edib.

Onun tanınmış stomatoloqlardan birinin övladının xoş gününə qatıldığı iddia edilib.

## Balaca it həyətə girən ayıları qovdu



**Xarici ölkələrdən birində evin bağına girən ayıların qarşısına çıxan balaca it ayıları həmin ərazidən uzaqlaşdıra bilib.**

Oxu.az xəbər verir ki, hadisə evin təhlükəsizlik kameraları tərəfindən qeydə alınıb. Yayılan görüntülərdə itdən qorxan ayıların bağın darvazasından atlayaraq qaçdıqları əks olunub.

## Körpəsini elan saytında satışa qoydu



**Rusiyada, Kazan sakini yeni doğulmuş oğlunu internetdəki elan vasitəsilə başqa ailəyə verib.**

Milli.Az bildirir ki, bu barədə "Mash İptash" Telegram kanalı məlumat yayıb. Məlumata görə, 2020-ci ildə Privoljsk Məhkəməsinin 20 yaşlı katibi maddi çətinliklərlə üzləşib və bu, onu oğlu üçün yeni valideynləri axtarmağa vadar edib. Elanı görən iki Pyatiqorsk sakini uşağı götürmək üçün Kazana uçublar. Razılaşma şəhər qeydiyyat idarəsində baş verib, burada atalıq sənədlərini saxtalaşdıraraq kişilər körpəni götürüblər və onunla birlikdə Stavropol diyarına qayıdıblar.

Uşağı aparan şəxs qanunsuz sövdələşməni etiraf edərək polisə müraciət edib. Uşağın anası məhkəməni gözləyir, uşaq, nənəsinin himayəsinə verilib.



# Sənədli filmi bəyənməyib

### Şahzadə Ketdən Megan Markl və şahzadə Harriyə təpki gəldi





**Böyük Britaniya şahzadəsi Harri və həyat yoldaşı Megan Marklın həyat və yaşamları haqqında çəkilmiş sənədli filmə taxt-tacın varisi, böyük qardaş şahzadə Uilyamın həyat yoldaşı Kett Midltondan təpki gəlib.**

Təpkiyə sənədli filmdə şahzadə Meganın kral ailəsini hədəfə alan ifadələri səbəb olub. "Şərq" "NTV.com"a istinadən xəbər verir ki, şahzadə Kett Meganın sənədli filmdə kral ailəsini suçlaması və onları hədəf alan ifadələrə yer verməsindən narahatdır. Kral ailəsinə yaxın mənbədən əldə edilmiş xəbərə görə, şahzadə K.Midlton M.Marklın açıqlamalarını doğru saymayıb. Mənbənin məlumatına görə, şahzadə Kett bu açıqlamalara görə özünü "xəyanətə uğramış kimi" hiss edir. Mənbə mövzu ilə bağlı şahzadə Uilyamın hər hansı açıqlama vermək niyyətində olmadığını da bildirib. Sənədli filmdə kral ailəsindən ayrılmaq və müstəqil yaşamaq qərarı verdikləri dönəmi xatırlayan şahzadə Harri bu zaman qardaşının ona bağırdığını deyib: "Qardaşım üstümə çığırdı və anladım ki, onlar bu məsələni müzakirə etməyə hazır deyillər". İddialara görə, şahzadə Uilyam kiçik qardaşının onu məhz bu cür qələmə verməsindən pərişan olub. Filmin yaradıcıları şahzadə Harri ilə Megan Marklın krallıqdakı vəzifələrindən imtina etmələrini mövzu olaraq seçib. Şahzadə də həmin dönəm haqqında danışıb. Lakin böyük qardaşı haqqında danışarkən uyğunsuz ifadələr işlədib. Şahzadə Harri ayrılma qərarları ilə bağlı mərhum kraliça II Yelizaveta və atası kral Çarlzla aralarında gərgin söhbət olduğunu deyib. Bu arada şahzadə Uilyam və Megan Markl Yeni il bayramı ərəfəsində yeni fotolarını paylaşıblar. B.Britaniya kral ailəsinin ənənəsinə görə, şahzadələr hər il Yeni il bayramında yeni fotolarını paylaşır və bu fotolar Yeni il bayramı təbrik açıqcalarına vurulur. Bu dəfə kral ailəsi üzvləri övladları ilə gəzintidə olan fotolarını paylaşıblar.

**Məlahət**

## Mavi rəng bəzəkləri təhlükəlidir

### Epilepsiyalı uşaqları Yeni il yolkasından uzaq tutun!



**Yeni il yolkasından asılan əlvan, parıldayan bəzəklər bəzi xəstələrə neqativ təsir edə bilər.**

Bakupost.az xəbər verir ki, həkim Sergey Xomyakov xüsusən mavi rəng bəzəklərin təhlükəli olmasına aydınlıq gətirib. "Mavi rəng parıltılı şüşələrdə və işıqlarda işıq intensivliyi axını az olduğu üçün gözdən beyinə təsiri azdır.

Çox parıldayan və işığı əks etdirən, rəng çaları qarışıq yeni il bəzəkləri nevroloji uşaqlara pis təsir edə bilər.Xüsusən yolkaya sarılan yanıb sönən işıqlar epilepsiya tutmalarını artırır, beyində ocaqları qıcıqlandırır.

Epilepsiya tutması olan və ya buna meyilli uşaqlarda bu neqativ fəsada gətirib çıxara bilər.

Eləcə də yatanda gecə yolka üzərində işıqların yanıb sönməsi də yuxu problemi yaradır və çirkad bioritmləri pozur. Belə işıqlar gecələr söndürülməlidir".



## Tənhalıq ürəyi xəstə edir

### Yapon alimləri araşdırma aparıb

**Kardioloqla tənhalığın, təkliyin ürəyə təsirini araşdırıb.**

Bakupost.az xəbər verir ki, yeni elmi araşdırmanı yapon alimləri aparıb.

Məlum olub ki, ürək problemi olan yaşlı insanlar özlərini tək, tənha hiss edirsə, onların ürək problemləri ilə daha çox üzləşəcəyi qaçılmazdır.

Yaponiyanın Sapporo universitetinin alimlərinin tədqiqatında 300 nəfər 60 yaşdan yuxarı insan iştirak edib.

Onların hamısı 3 il ərzində tənhalıq üzrə sorğuya alınıb.

Sübut edilib ki, tənhalıq yaşlı pasiyentlərdə ürəklə bağlı klinik nəticələri mənfiyə dəyişir. Xəstənin tək olması və ya ailəsi olsa da özünü tək hiss etməsi ürək çatışmazlığı riskini və pis proqnozu artırır.

Müxtəlif ölkələrdə və mədəniyyətlərə tənhalıq faktoru müxtəlif cür qəbul oluna bilər.

Tənhalıq həm də depressiv vəziyyəti artırır, bu da ürəyə zərərdir.